QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 151 (5623) 11 **avqsut** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycan Qafqaz regionunda Tacikistan üçün mühüm tərəfdaşdır"

*İlham Əliyev: "Tacikistan və Azərbaycan iştirak etdiyimiz beynəlxalq təşkilatlarda ənənəvi olaraq bir-birini dəstəkləyir"*

Səh 2



6

Bakı 2019-cu ildə YUNESKO-nun sessiyasına ev sahibliyi edəcək




6

DOST hansı problemləri həll edəcək?

DOST MƏRKƏZ
dayanıqlı və operativ sosial təminat

16

Ramil Quliyev Avropa çempionu oldu!



# "Azərbaycan Qafqaz regionunda Tacikistan üçün mühüm tərəfdaşdır"

## İlham Əliyev: "Tacikistan və Azərbaycan iştirak etdiyimiz beynəlxalq təşkilatlarda ənənəvi olaraq bir-birini dəstəkləyir"

***Azərbaycan Respublikasına rəsmi səfərə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun avqustun 10-da rəsmi qarşılanma mərasimi olub. Rəsmi qarşılanma mərasimi başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, Tacikistan Prezidenti Emoməli Rəhmonu salamlayan Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, ölkələrimiz arasında qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək:***



-Hörmətli Emoməli Şərifoviç. Sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram. Sizin səfərinizə çox sevinirəm. Əminəm ki, səfər ölkələrimiz arasında qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək. Biz gündəliyimizdə duran mühüm məsələləri, əlbəttə ki, regional əməkdaşlıq məsələlərini müzakirə edəcəyik. Ölkələrimizi daha da yaxınlaşdırmaq üçün çox iş görməliyik. Səfəriniz ərəfəsində nümayəndə heyətlərimiz çox fəal iş görüblər, ticari-iqtisadi inkişaf, nəqliyyat infrastrukturu ilə bağlı bir çox məsələləri müzakirə ediblər. Əməkdaşlığı gücləndirmək üçün yaxşı zəmin var. Əlbəttə, bu gün biz bunu mütləq müzakirə edəcəyik. Həmçinin bu gün bizim uğurla irəliləməyimiz üçün hüquqi baza yaradacaq xeyli sənəd imzalanacaq və bunların arasında çox mühüm sənəd olan prezidentlərin Birgə Bəyanatının imzalanmasını qeyd etmək istərdim.



Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və əminəm ki, səfər məhsuldar olacaq. Biz həm Tacikistanda, həm Azərbaycanda, həm də beynəlxalq müstəvidə tez-tez görüşürük. Əlbəttə ki, gündəlikdə duran məsələləri ətraflı müzakirə etmək üçün yaranan bu imkan münasibətlərimizə yeni impuls verəcək. Bir daha xoş gəlmisiniz.

Tacikistan Prezidenti Emoməli Rəhmon:

-İlham Heydər oğlu, dəvətə görə çox sağ olun. Biz dost Azərbaycanın uğurlarına, sosial-iqtisadi inkişafına, beynəlxalq arenada uğurlarına səmimi qəlbdən sevinirik. Tacikistan Azərbaycanla çoxşaxəli əməkdaşlığa böyük əhəmiyyət verir. Tacikistan-Azərbaycan qarşılıqlı əlaqələrinin bütün formatlarda dinamik inkişafı sevindiricidir. Əminəm ki, bizim bugünkü görüş bütün əsas məsələlər üzrə qarşılıqlı münasibətlərimizə yeni impuls verəcək.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. AZƏRTAC xəbər verir ki, prezidentlər görüşdə çıxış ediblər. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında qeyd edib ki, Tacikistan və Azərbaycan iştirak etdiyimiz beynəlxalq təşkilatlarda ənənəvi olaraq bir-birini dəstəkləyir və bu dəstək ölkələrimiz üçün çox əhəmiyyətlidir:

"Biz bu gün qarşılıqlı iqtisadi fəaliyyəti də müzakirə edəcəyik. Artıq nümayəndə heyətlərinin üzvləri fəal iş aparıblar. Sizin səfəriniz ərəfəsində səfərlə bağlı materialları hazırlamaq və iqtisadi layihələr, o cümlədən nəqliyyat, ölkələrimizin sənayesinin inkişafına dair layihələr üzrə vacib qərarlar qəbul etmək üçün ölkələrimizin rəsmi təmsilçilərinin bir neçə görüşü keçirilib. Biz bu haqda artıq danışmışıq və daha geniş tərkibdə bu məsələləri müzakirə edəcəyik.

Əlbəttə ki, münasibətlərimizin vacib hissəsini humanitar sahədə əməkdaşlıq təşkil edir. Burada biz xalqlarımız arasında ənənəvi əlaqələrə istinad edirik. Bu əlaqələr bugünkü münasibətlər üçün yaxşı təməldir. Düşünürəm ki, qarşıdakı illərdə biz, həmçinin xalqlarımızın daim sıx təmasda olması məqsədilə ölkələrimizdə mütəmadi mədəni tədbirlər keçirmək üçün iş aparmalıyıq. Münasibətlərimizin gündəliyi çox genişdir. Biz mütəmadi görüşürük, səfərlər, beynəlxalq xarakterli tədbirlər çərçivəsində vacib məsələləri müzakirə edirik. Şadıq ki, bu gün dostluq münasibətləri uğurla inkişaf edir. Mən bir daha Sizi səmimi qəlbdən salamlayıram və Azərbaycanda vaxtınızı yaxşı keçirməyi arzulayıram."

**Ardı Səh. 3**

# "Azərbaycan Qafqaz regionunda Tacikistan üçün mühüm tərəfdaşdır"

## *İlham Əliyev: "Tacikistan və Azərbaycan iştirak etdiyimiz beynəlxalq təşkilatlarda ənənəvi olaraq bir-birini dəstəkləyir"*

Əvvəli-Səh-2

x x x



Tacikistan Prezidenti Emoməli Rəhmon çıxışında diqqətə çatdırıb ki, bu gün Tacikistan-Azərbaycan münasibətləri getdikcə inkişaf edir:

"Biz qarşılıqlı maraq doğuran əməkdaşlığımızın bütün istiqamətləri üzrə məhsuldar fəaliyyətimizin genişləndirilməsində və dərinləşdirilməsində maraqlıyıq. Əminəm ki, bu gün əldə edəcəyimiz razılaşmalar çoxşaxəli tərəfdaşlığımızı yeni məzmunla zənginləşdirəcək, daha yüksək və keyfiyyətli səviyyəyə çıxaracaq.

Hörmətli İlham Heydər oğlu, müstəqillik illərində öz sosial-iqtisadi inkişafında böyük uğurlar əldə edən Azərbaycanın beynəlxalq arenada mövqeləri ardıcıl surətdə möhkəmlənir. Ölkənin uğurunun parlaq nümunəsi onun paytaxtının simasının ildən-ilə dəyişməsidir. Mən görüş zamanı bu barədə danışdım. Bakı bu gün haqlı olaraq dünyanın ən gözəl və müasir şəhərlərindən biri sayılır. Bütün bu nailiyyətlər Sizin cəmiyyət tərəfindən daha çox və hərtərəfli dəstəklənən uğurlu dövlət siyasətinizlə əlaqədardır. Səmimi qəlbdən Sizə uğurlar və Azərbaycan xalqının rifahı naminə nailiyyətlər arzulayıram. Azərbaycan Qafqaz regionunda bizim üçün mühüm tərəfdaşdır. Məmnuniyyətlə Tacikistan-Azərbaycan münasibətlərinin uğurla genişləndirilməsi meylini qeyd etmək istərdim. Dostluq və əməkdaşlıq barədə müqaviləyə əsaslanaraq ötən illər ərzində biz münasibətlərimizin sanballı müqavilə-hüquq bazasını formalaşdırmışıq. Bu baza bu gün demək olar ki, əməkdaşlığın bütün sahələrini əhatə edir. Bu gün ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsinə yönələn ikitərəfli sənədlərin yeni paketi imzalanacaq."



Geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dövlət başçılarının Birgə Bəyanatını imzaladılar.

"Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Tacikistan Respublikasının İnvestisiyalar və Dövlət Əmlakının İdarəedilməsi üzrə Dövlət Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum"u AZPROMO-nun prezidenti vəzifəsini icra edən Yusif Abdullayev və Tacikistanın İnvestisiya və Dövlət Əmlakının İdarəedilməsi üzrə Dövlət Komitəsinin sədri Farrux Xamralizoda imzaladılar.

"Azərbaycan Sənaye Korporasiyası" ilə "Tacik Alüminium Kompaniyası" (TALKO) Dövlət Unitar Müəssisəsi arasında Anlaşma Memorandumu"nu "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin baş direktoru Kamran Nəbizadə və "Tacik Alüminium Kompaniyası" Dövlət Unitar Müəssisəsinin Direktorlar Şurasının sədri Kabir Şerali imzaladılar.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Tacikistan Respublikası Hökuməti yanında Televiziya və Radio Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum"u "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Alışanov və Tacikistan Hökuməti yanında Televiziya və Radio Komitəsinin sədri Maxmadsaid Şoxiyon imzaladılar. "SOCAR və TALKO şirkətləri arasında neft koksunun təchizatı haqqında Anlaşma Memorandumu"nu SOCAR-ın prezidenti Rövnəq Abdullayev və "Tacik Alüminium Kompaniyası" Dövlət Unitar Müəssisəsinin Direktorlar Şurasının sədri Kabir Şerali imzaladılar.

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsi arasında Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsinin sərhəd qoşunlarının hərbi qulluqçularının Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Akademiyasında təlimi haqqında Saziş"i Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev və Tacikistan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini, Sərhəd Qoşunlarının komandanı Rəcəbəli Rəhmonəli imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Tacikistanın Qida Təhlükəsizliyi üzrə Komitəsinin sədri Farxod Kamolzoda imzaladılar. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılmasına dair Protokol"u Azərbaycanın təhsil naziri Ceyhun Bayramov və Tacikistanın təhsil və elm naziri Nuriddin Said imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Tacikistan Respublikasının İqtisadi İnkişaf və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Tacikistanın iqtisadi inkişaf və ticarət naziri Nematcon Hikmatullozoda imzaladılar. "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye və yeni texnologiyalar sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Tacikistanın sənaye və yeni texnologiyalar naziri Şavkat Bobozoda imzaladılar.

**Ardı Səh. 4**

# "Azərbaycan Qafqaz regionunda Tacikistan üçün mühüm tərəfdaşdır"

## İlham Əliyev: "Tacikistan və Azərbaycan iştirak etdiyimiz beynəlxalq təşkilatlarda ənənəvi olaraq bir-birini dəstəkləyir"

Əvvəli-Səh-3

"Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Tacikistan Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın baş prokuroru Zakir Qaralov və Tacikistanın baş prokuroru Yusif Rəhmon imzaladılar. "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Tacikistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2019-2020-ci illər üzrə Əməkdaşlıq Proqramı"nı Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Tacikistanın xarici işlər naziri Muxriddin Sirociddin imzaladılar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış edib:

"Hörmətli cənab Prezident. Hörmətli qonaqlar, əziz dostlar. Emoməli Şərifoviç, Sizi Azərbaycanda bir daha səmimi qəlbdən salamlayıram. Tacikistan Prezidentinin Azərbaycana səfəri ölkələrimizin ikitərəfli münasibətlərində mühüm hadisədir. Biz həm Tacikistanda, həm Azərbaycanda tez-tez görüşürük. Təmaslar mütəmadi xarakter daşıyır. Beynəlxalq tədbirlər çərçivəsində də həmişə söhbət edib vacib məsələləri müzakirə etməyə vaxt tapırıq. Lakin, əlbəttə, rəsmi səfər məsələlərin müzakirəsi və həlli üçün tamam başqa formatdır, tamam başqa səviyyədir.

İlk növbədə qeyd etmək istərdim ki, biz Prezident Emoməli Şərifoviç Rəhmonun rəhbərliyi ilə Tacikistanın uğurlu inkişafını çox diqqətlə izləyirik. Tacikistan sosial-iqtisadi inkişaf məsələlərini uğurla həll edir. Ölkənizin beynəlxalq nüfuzu artır. Siz dayanıqlı, sabit inkişafa, mühüm sosial məsələlərin həllinə yönələn vacib qlobal təşəbbüslərlə çıxış edirsiniz. Tacikistanda ictimai-siyasi sabitlik mövcuddur. Bu, davamlı inkişaf üçün əsas amildir. Biz Sizin uğurlarınıza sevinirik və əminik ki, Tacikistan bundan sonra da Sizin müdrik rəhbərliyinizlə inkişaf və tərəqqi yolu ilə gedəcək.

Bu gün biz həm üzbəüz söhbət zamanı, həmçinin nümayəndə heyətlərinin iştirakı ilə ikitərəfli gündəliyin mühüm məsələlərini, regional problematika məsələlərini müzakirə etdik. Əminəm ki, səfər çox yaxşı nəticələr verəcək. Bu nəticələr ölkələrimiz arasında qarşılıqlı sosial-iqtisadi fəaliyyətdə mütləq özünü göstərəcək və xalqlarımızı daha da yaxınlaşdıracaq. Bu gün bir çox mühüm sənədlər imzalanıb. Həmin sənədlər bizim münasibətlərimiz üçün mühüm hüquqi baza yaradıb və bu sənədlər nəticəyə hədəflənib. Düşünürəm ki, əldə etdiyimiz razılaşmaların uğurlu icrası əmtəə dövriyyəsinin xeyli artmasına və bir çox istiqamətlər üzrə işimizin fəallaşmasına gətirib çıxaracaq. Əlbəttə ki, indicə imzalanan sənədlər arasında Tacikistan və Azərbaycan prezidentlərinin Birgə Bəyanatını xüsusi qeyd etmək istərdim. Bu, ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin bütün sahələrini əhatə edən olduqca fundamental vacib siyasi sənəddir. Bu sənəd ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyəsini qeyd edir. Bu sənəddə iqtisadi əməkdaşlıq, nəqliyyat, humanitar əməkdaşlıq, təhlükəsizliyin möhkəmləndirilməsi sahələrində mühüm məsələlərin əsas prioritetləri əksini tapıb. Sənəddə ölkələrimizi narahat edən vacib məsələlər də əks olunub. Azərbaycan Tacikistanın BMT-də irəli sürdüyü və gələcək onilliyin - 2018-2028-ci illərin "Su - dayanıqlı inkişaf üçün" tezisi ilə bağlı onilliyin olmasına dair təşəbbüsünü fəal dəstəkləyir. Bu, çox mühüm təşəbbüsdür. Qeyd etdiyim kimi, biz onu dəstəkləyirik. Bu, indicə imzalanan Birgə Bəyanatda əksini tapıb.

Tacikistana Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı mövqeyinə görə də minnətdarlığımı bildirmək istərdim. Bəyanatın mətnində yazılıb ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, ATƏT-in qərarlarına uyğun şəkildə həll olunmalıdır. Bütün Azərbaycan xalqı adından belə ədalətli mövqeyə görə minnətdarlıq bildirmək istərdim. Bu, həm dost mövqeyidir, həm də ədalətli mövqedir. Çünki uzun illərdir ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan əraziləri Ermənistanın işğalı altındadır və Ermənistan BMT-nin Təhlükəsizlik Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər bu kimi aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrini yerinə yetirmir. Vaxtilə onların hamısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərar və qətnamələr qəbul ediblər və bu zaman belə bir nöqteyi-nəzərdən çıxış ediblər ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır."

x x x

Sonra Tacikistan Prezidenti Emoməli Rəhmon bəyanatla çıxış edib:

"Dost Azərbaycan torpağında rəsmi səfərdə olmaq və Azərbaycan xalqının səmimi sevincini duymaq mənim üçün xoşdur. Azərbaycan Tacikistanın xarici siyasət strategiyasında mühüm yerlərdən birini tutur və biz Tacikistan-Azərbaycan əməkdaşlığının gələcəkdə də inkişafında və möhkəmlənməsində maraqlıyıq.

Bu gün bizim siyasi dialoqumuz çərçivəsində həm ikitərəfli, həm də regional və beynəlxalq xarakterli məsələlərin geniş spektoru üzrə konstruktiv və maraq doğuran fikir mübadiləsi aparıldı. İlham Heydər oğlu ilə mən belə bir fikrə gəldik ki, bütün istiqamətlər üzrə sıx əməkdaşlıq üçün mövcud imkanlardan daha da geniş istifadə olunması vacibdir. Bu barədə indicə İlham Heydər oğlu sizə məlumat verdi. Ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılması məsələləri və iqtisadiyyatın müxtəlif sektorlarında əməkdaşlığımızın istiqamətlərinin genişləndirilməsi diqqət mərkəzində oldu. Bu cəhətdən biz ticari-iqtisadi əməkdaşlıq üzrə iki ölkənin dövlətlərarası qarşılıqlı fəaliyyət mexanizmi kimi birgə hökumətlərarası komissiyanın mühüm rolunu qeyd etdik. Biz o fikirdə həmrəy olduq ki, komissiya çərçivəsində əldə olunmuş razılaşmaların dəqiq yerinə yetirilməsi və imzalanan dövlətlərarası sənədlərin reallaşdırılması bizim ticari-iqtisadi münasibətlərimizin gələcək inkişafının amilidir.

Ənənəvi qarşılıqlı anlaşma mühitində keçən danışıqların gedişində biz BMT, ATƏT, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq və regional birliklər çərçivəsində də qarşılıqlı fəaliyyətimizin perspektivlərini müzakirə etdik. Biz ölkələrimizin ümumi mövqedən çıxış etdiyi Əfqanıstan problemini müzakirə etdik. Biz Əfqanıstanda sülhün və sabitliyin dirçəldilməsi məqsədlərinə sadiqliyimizi təsdiq etdik, həmçinin beynəlxalq terrorizm, ekstremizm, radikal dini ideologiya, narkotiklərin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq və digər çağırışlar və təhlükəsizliyin təhdidləri ilə mübarizədə gələcəkdə də əməkdaşlığı inkişaf etdirməyə tərəfdar olduğumuzu bildirdik.

Xüsusilə qeyd etmək istərdim ki, bütün bu məsələlər üzrə bizim mövqelərimiz üst-üstə düşür. Bu da həmin istiqamətdə əməkdaşlıq və qarşılıqlı fəaliyyət üçün yaxşı təməldir. Biz Cənubi Qafqazda cərəyan edən proseslər üzrə fikir mübadiləsi də apardıq. Biz mövcud ziddiyyətlərin və münaqişələrin hamılıqla tanınan beynəlxalq normalar və meyarlar çərçivəsində sülh yolu ilə həlli prinsipinə qəti sadiqliyimizi ifadə edirik. Bizim əqidəmizə görə, siyasi-diplomatik dialoq Dağlıq Qarabağ kimi çətin problemin həllində ən konstruktiv yoldur."

## Rəsmi xronika

Prezident İlham Əliyev Teymur Göyçayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Milix Yevdayevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 13 dekabr tarixli 328 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1223-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1225-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1224-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

# Prezident İlham Əliyev ABŞ Konqresinin nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da ABŞ Konqresinin Nümayəndələr Palatasının kəşfiyyat üzrə daimi xüsusi komitəsinin sədri Devin Nunesin başçılıq etdiyi və komitənin üzvü Rik Kravfordun daxil olduğu nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi bildirildi, ABŞ Konqresinin Nümayəndələr Palatasının kəşfiyyat üzrə daimi xüsusi komitəsinin sədri Devin Nunesin Azərbaycana səfərinin əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyi vurğulandı.

Söhbət zamanı Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlara fəal dəstək verdiyi qeyd edildi, ölkələrimizin beynəlxalq terrorizmə qarşı mübarizədə səylərinin bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu. Görüşdə regional təhlükəsizlik, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan-Tacikistan münasibətləri bundan sonra da dostluq və tərəfdaşlıq zəminində inkişaf edəcək



***Avqustun 10-da Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov ölkəmizdə rəsmi səfərdə olan Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonla görüşüb.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə Tacikistan arasında ənənəvi dostluq münasibətlərini xatırladan Baş nazir Novruz Məmmədov hazırda əlaqələrimizin yüksək səviyyədə davam etdiyindən məmnunluğunu bildirdi. Tacikistan Prezidentinin ölkəmizə rəsmi səfərinin siyasi-iqtisadi və humanitar əməkdaşlığımızın daha da dərinləşməsi baxımından əhəmiyyətli olacağını vurğulayan Baş nazir qeyd etdi ki, səfər çərçivəsində hər iki ölkənin prezidentləri arasında keçirilən yüksək səviyyəli görüşlər, aparılan danışıqlar və imzalanan sənədlər çoxşaxəli münasibətlərimiz üçün yeni perspektivlər açacaq, qarşılıqlı sərmayə qoyuluşuna şərait yaradacaq.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon, ilk növbədə, Novruz Məmmədovu Baş nazir təyin olunması münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar dilədi. Prezident regionun ən inkişaf etmiş ölkələrindən biri olan dost Azərbaycana səfərindən məmnunluq ifadə edərək, bu səfərin çox məhsuldar və səmərəli keçdiyini vurğuladı. Azərbaycan ilə Tacikistan arasında ikitərəfli münasibətlərin bundan sonra da dostluq və tərəfdaşlıq zəminində inkişaf edəcəyinə əminlik bildirən Emoməli Rəhmon iqtisadi-ticari, dağmədən sənayesi, kənd təsərrüfatı, nəqliyyat, təhsil, mədəniyyət və digər sahələrdə daim genişlənən qarşılıqlı faydalı əməkdaşlığın xalqlarımızın mənafeyinə uyğun olduğunu diqqətə çatdırdı.

Görüşdə Baş nazir Novruz Məmmədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında ali qonağa ətraflı məlumat verdi. Baş nazir Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə münaqişənin həllinin yubadılmasının bütün regionda sülhə və əmin-amanlığa təhlükə yaratdığını diqqətə çatdırdı.

Səmimi söhbət zamanı Azərbaycan ilə Tacikistan arasında regional əməkdaşlığın qarşılıqlı maraq doğuran sahələr üzrə inkişaf etdirilməsinə, təcrübə mübadiləsinə dair geniş fikir mübadiləsi aparıldı.



# Azərbaycan Sərhəd Mühafizəsinin yaradılmasının 99-cu ildönümünə həsr olunan müsabiqəyə yekun vurulub

Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən gənclərin Heydər Əliyev dövlətçiliyinə sədaqət, hərbi vətənpərvərlik, Vətənə, qədim tariximizə, mənəvi dəyərlərimizə hörmət və ehtiram ruhunda tərbiyə olunması, onlarda sərhədçi peşəsinə marağın artırılması istiqamətində tədbirlər davam etdirilir. Bu tədbirlər sırasında yaradıcılıq müsabiqələri xüsusi yer tutur.

AZƏRTAC xəbər verir ki, avqustun 10-da Dövlət Sərhəd Xidməti Akademiyasında Təhsil Nazirliyi, Mətbuat Şurası, Yazıçılar Birliyi və Rəssamlar İttifaqı ilə birgə müsabiqənin yekunlarına həsr olunmuş təntənəli tədbir keçirilib.

Tədbirdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına, intellektual inkişafına və yaradıcılıq fəaliyyətinə dövlətimiz tərəfindən böyük önəm verilməsi, sərhədçilərin fədakar xidmətlərinin təbliği, sərhədçi peşəsinə rəğbət və ehtiram hissinin aşılanması üçün bu müsabiqənin ciddi əhəmiyyət kəsb etməsini xüsusi vurğulayıblar.

Diqqətə çatdırılıb ki, Azərbaycan Sərhəd Mühafizəsinin yaradılmasının 99-cu ildönümü ərəfəsində bədii ədəbiyyat, təsviri sənət, qəzet məqaləsi və orta məktəb şagirdləri arasında "Sərhədlərimizin keşiyində" mövzusunda inşa yazı müsabiqəsi təşkil edilib. Müsabiqədə 1000 nəfərdən artıq yaradıcı insan, peşəkar və həvəskar yazıçılar, şairlər, rəssamlar, jurnalistlər, sərhədçi zabit və gizirlər, onların ailə üzvləri, əsgərlər, ümumtəhsil məktəblərinin şagirdləri iştirak ediblər.

Müsabiqə iştirakçıları tərəfindən təqdim olunmuş çoxsaylı əsərlər sırasından ən yaxşıları seçilərək 40 şeir, 14 hekayə, 15 qəzet məqaləsi, 68 inşa yazısı və 30 rəsm əsəri müsabiqənin finalına buraxılıb, peşəkar mütəxəssislərdən ibarət münsiflər heyəti tərəfindən müsabiqənin finalçıları arasından qaliblər müəyyən edilib. Qaliblərə diplomlar və pul mükafatları təqdim olunub, müsabiqədə yer tutmuş təsviri sənət nümunələri nümayiş etdirilib.

# Səhiyyə naziri Ucarda vətəndaşları qəbul edib



Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən dövlət orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbul zamanı vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli istiqamətində tədbirlər görülür.

Avqustun 10-da səhiyyə naziri Oqtay Şirəliyev qəbul cədvəlinə uyğun olaraq Ucar mərkəzi rayon xəstəxanasında Ucar, Göyçay, Kürdəmir, Ağsu rayonlarının sakinlərini qəbul edib. Qəbulda sakinlərin sağlamlıq problemləri, işlə təminat və bir sıra digər məsələlərlə bağlı müraciətləri dinlənilib. Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb, onların bəziləri yerində öz həllini tapıb. Nazirliyin səlahiyyətlərində olmayan məsələlər aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

# Ərdoğan: "Onların dolları varsa bizim də xalqımız, haqqımız var"

Bizə qarşı bir çox kampaniyalar başlayıb. Onlara fikir verməyin. Unutmayın ki, onların dolları varsa, bizim də xalqımız, haqqımız, Allahımız var.



AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu fikirləri ata yurdu Rizənin Güneysu qəsəbəsinə səfəri zamanı səsləndirib.

Ölkəsinə qarşı iqtisadi təzyiqləri, o cümlədən maliyyə sistemini sarsıtmaq cəhdlərini perspektivsiz adlandıran Rəcəb Tayyib Ərdoğan deyib: "Çox çalışacağıq. Ölkəmizi 81 vilayəti ilə birgə daha da inkişaf etdirməyə çalışacağıq. Bunu bilin ki, bu gün dünəndən daha yaxşıyıq, sabah da bu gündən də yaxşı olacağıq. Bizə qarşı bir çox kampaniyalar başlayıb. Onlara fikir verməyin. Unutmayın ki, onların dolları varsa, bizim də xalqımız, haqqımız, Allahımız var. Biz çox çalışırıq. 16 il bundan əvvəl harada idik, indi haradayıq. İnşallah 2023-cü il fərqli başlayacaq. Mənim buna inamım, inancım var".

Xatırladaq ki, respublikanın hakimiyyət orqanları terrorçu qruplaşma ilə əlaqədə adı keçən amerikalı pastor Endryu Bransonu azad etməkdən boyun qaçırdıqdan sonra Türkiyə və ABŞ arasında münaqişənin kəskinləşməsi səbəbindən türk lirəsinin dollara nisbətdə məzənnəsi sürətlə aşağı düşür. Bu gün səhər saatlarında lirə daha 7 faizdən çox dəyər itirib. Hazırda dolların məzənnəsi 5,99 lirəyədək yüksəlib.

# Bakı 2019-cu ildə YUNESKO-nun sessiyasına ev sahibliyi edəcək

*Belə bir qərarın qəbul olunmasında Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında yürüdülən uğurlu xarici siyasət, Birinci vitse-prezident, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi və qayğısı dayanır.*




Məlum olduğu kimi, Azərbaycanın paytaxtı Bakı şəhəri 2019-cu ildə YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi edəcək. Bu qurumun 42-ci sessiyası isə iyunun 4-dən iyulun 4-dək Bəhreyn Krallığının Manama şəhərində baş tutub. Sessiyada Azərbaycan heyəti də iştirak edib və heyətə Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev rəhbərlik edib.

Nazirlikdən verilən məlumata görə, iclas çərçivəsində YUNESKO-nun Ümumdünya Mədəni və Təbii İrsin Qorunması haqqında Konvensiyasına aid məsələlər müzakirə edilib, eyni zamanda, müxtəlif ölkələrin maddi irs nümunələri Ümumdünya İrs Siyahısına daxil edilib, eyni zamanda, komitə iclasının sonunda növbəti il üçün komitənin sədri və 43-cü sessiyaya ev sahibliyi edəcək ölkə ilə bağlı müzakirələr aparılıb.

### Bakıda keçiriləcək tədbirdə dünyanın 180-dən çox ölkəsindən 2000 nəfərdən çox nümayəndənin iştirakı gözlənilir

Yekun qərara əsasən, mədəniyyət naziri Əbülfəs Qarayev komitəyə sədr seçilib. Beləliklə, 2019-cu ildə YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına Azərbaycan ev sahibliyi edəcək. Məlumata görə, Bakıda keçiriləcək tədbirdə dünyanın 180-dən çox ölkəsindən 2000 nəfərdən çox nümayəndənin iştirakı gözlənilir.

Qeyd edək ki, Ümumdünya İrs Komitəsinin sessiyası dünya mədəni irsinə töhfə verən ən nüfuzlu tədbirlərindən biri hesab olunur. Ümumdünya İrs Komitəsi dünya xalqlarının kimliyini və tarixi yaddaşını ifadə edən maddi və təbii irs nümunələrinə, ən dəyərli abidələrə dair qərarlar qəbul edir. Bu tədbirə ev sahibliyi etmək və eyni zamanda, komitəyə sədrlik etməklə Azərbaycan Respublikası dünya xalqlarının mədəniyyət tarixində öz müsbət izini qoyacaqdır.

### Bu qərar, həmçinin, Azərbaycan xarici işlər və mədəniyyət nazirliklərinin birgə fəaliyyəti nəticəsində ölkəmizin YUNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir

Söz yox ki, ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən belə bir qərarın qəbul olunmasında Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında yürüdülən uğurlu xarici siyasət, Birinci vitse-prezident, YUNESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın dəstəyi və qayğısı dayanır.Bu qərar, həmçinin, Azərbaycan xarici işlər və mədəniyyət nazirliklərinin birgə fəaliyyəti nəticəsində ölkəmizin YUNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir.

### Bu kimi ali dəyərlər, eyni zamanda, Azərbaycanın nüfuzunu daim yüksəklərdə saxlayır

Xüsusilə, bu gün Azərbaycanla YUNESKO arasında əlaqələr davamlı şəkildə həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun apardığı məqsədyönlü fəaliyyəti xüsusi qeyd etməliyik. Azərbaycan maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəriciləridir. Belə ki, muğam sənətinin, aşıq sənətinin, Novruz bayramının, İçərişəhərin, tar ifaçılığı sənətinin YUNESKO-nun nadir və şah əsərləri sırasına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlılığını diqqətə çatdırır. Sözsüz ki, sadaladığımız nadir irsin bu siyahıya daxil edilməsində fondun prezidenti Mehriban Əliyevanın rolu xüsusidir. Belə layihələri həyata keçirən fondun prezidentinin humanizm ideyalarının beynəlxalq aləmdə əks-səda doğurmasının nəticəsidir ki, Mehriban Əliyevaya bu təşkilatın Xoşməramlı Səfiri adı verilib. Söz yox ki, bu kimi ali dəyərlər, eyni zamanda, Azərbaycanın nüfuzunu daim yüksəklərdə saxlayır. Gözəl, əsrarəngiz və füsunkar paytaxtımız olan Bakımızın 2019-cu ildə YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsi də bu gerçəkliyi ehtiva etməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***

# Vüqar Rəhimzadə: "Azərbaycan bütün beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edib"

"YUNESKO"-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı çox əhəmiyyətlidir. Çünki YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakı şəhərində keçirilməsi Azərbaycanın, xüsusilə paytaxt Bakının beynəlxalq münasibətlərdə, aləmdə nə qədər mühüm əhəmiyyət kəsb etdiyinin ən vacib göstəricilərindən birincisidir". Bu sözləri mətbuata açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.



Vüqar Rəhimzadə bildirib ki, belə bir tədbirin ölkəmizdə təşkili dövlətimizin qazandığı nüfuzdan və onun gücündən xəbər verir: "Artıq YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu il 30 iyun-10 iyul tarixində Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Komitə qarşıya qoyulmuş bütün vəzifələrin öhdəsindən gələcək. Bu tədbir Azərbaycanın siyasi münasibətlərdəki mövqeyini bir daha möhkəmləndirəcək, eləcə də, beynəlxalq əməkdaşlıqda kifayət qədər önəm kəsb edəcək. Hesab edirəm ki, bu, bütün sahələrdə Azərbaycanın nə qədər inkişaf etməsinin, qüdrətli olmasının bir göstəricisidir. Azərbaycan tolerant ölkədir və dünyada əhəmiyyətli rola malikdir. Azərbaycan indiyədək bir çox mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edib və bundan sonra da edəcək. Bu, Azərbaycanın dünya birliyinə verdiyi önəmin bir nümunəsidir. Azərbaycan dünya, beynəlxalq aləm üçün nə qədər əhəmiyyət kəsb etdiyini bu tədbirlərlə və apardığı siyasətlə təsdiq edib".

# DOST hansı problemləri həll edəcək?

DOST MƏRKƏZ
dayanıqlı və operativ sosial təminat

"Azərbaycanda Prezident İlham Əliyevin daxili siyasətində sosial müdafiə, sosial təminat prioritet istiqamətdir. Əhalinin məşğulluğunun təmin edilməsi, aztəminatlı insanların müdafiəsinin gücləndirilməsi, pensiya, müavinətlərin, ünvanlı sosial yardımların verilməsi, əlillik məsələlərinin müəyyənləşdirilməsi və digərləri əhalinin sosial müdafiəsinə xidmət edən sahələrdir. Bu sahədə pərakəndiliyi, müəyyən hallarda rast gəldiyimiz süründürməçiliyi, qeyri-qanunu münasibətləri, korrupsiya, rüşvət hallarını aradan qaldırmaq, vətəndaşlara xidmətin keyfiyyətini yüksəltmək üçün sosial təminatın bir mərkəzdən həyata keçirmək məqsədilə Prezident İlham Əliyevin sərəncamı əsasında ölkəmizdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" (DOST) yaradılır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədr müavini, deputat Musa Quliyev deyib.



Deputat bildirib ki, DOST dünyanın qabaqcıl ölkələrinin təcrübəsi nəzərə alınmaqla yaradılacaq. M.Quliyevin sözlərinə görə, sözügedən agentliyin yaradılmasında məqsəd sosial xidmət sahələrində keyfiyyəti yüksəltmək, operativliyi artırmaq və vətəndaşların məmnunluğunu artırmaqdır: "Agentliyin regional formaları da yaradılacaq. İndiyədək Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin yerli strukturlarının göstərdiyi bir çox funksiyalar bu agentlikdə birləşərək, daha keyfiyyətli, operativ bir mərkəzdən idarə olunmaqla həyata keçiriləcək. Bu da əhalinin aztəminatlı hissəsinin həm məşğulluğunun təmin olunmasında, həm sosial yardımların alınması, müavinət və pensiyaların hesablanmasında, əlillik vəziyyətinin qiymətləndirilməsində operativliyi təmin edəcək. Demək olar ki, vətəndaş bir binaya girməklə özünün mövcud problemlərin hamısının həll edərək oradan çıxa bilmək imkanı qazanacaq".

Elektron idarəetmənin dünyada geniş yayıldığını deyən komitənin sədr müavini qeyd edib ki, sosial xidmət sahəsində elektron xidmətlərin həm keyfiyyəti, həm də miqyası genişlənəcək: "Vətəndaş bəzi hallarda evindən çıxmadan elektron müraciət əsasında o xidmətləri ala biləcək".

Deputat əlavə edib ki, Agentliyin yaradılması isə Milli Məclisin əmək və sosial siyasət komitəsi tərəfindən müəyyən qanunlara əlavə və dəyişikliklərin edilməsi də nəzərdə tutulur: " Bununla bağlı məsələlər Prezident İlham Əliyevin sərəncamında öz əksini tapıb. Qanunlara ediləcək əlavə və dəyişikliklərə Milli Məclisin payız sessiyası müddətində baxılacaq, hökumətin müvafiq qurumları ilə birgə müzakirələr aparıldıqdan sonra lazımi addımlar atılacaq".

***Nailə Məhərrəmova***

# Bəhruz Quliyev: “Ölkələrimiz arasındakı ikitərəfli əməkdaşlıq daha geniş imkanlara yol açacaq”

***“Azərbaycan Prezidenti Cənab İlham Əliyevlə Tacikistan Prezidenti cənab Emoməli Rəhmonun Birgə Bəyanatları bir daha sübut etdi ki, iki ölkə arasında olan dostluq və qardaşlıq bağları bundan sonrakı illərdə də sürətlə inkişaf edəcək və möhkəmlənəcək”. Bu fikirləri mətbuata siyasi ekspert Bəhruz Quliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Azərbaycana etdiyi rəsmi səfərə və bu səfər çərçivəsində əldə edilən razılaşmalara, imzalanan sazişlərə, eləcə də, qəbul edilən Birgə Bəyanata münasibətini bildirərkən deyib.***



Onun sözlərinə görə, Tacikistanın dövlət başçısının irəli sürdüyü fikirlər, bilavasitə Azərbaycanın siyasi, iqtisadi və sair sahələri əhatə edən maraqlarına cavab verir: “Əsasən, Tacikistan Prezidentinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı mövqeyi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycanın sərhədlərinin toxunulmazlığı və bu məsələdə ölkəmizin ədalətli mövqeyinin dəstəklənməsi, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, ATƏT-in qərarlarına uyğun şəkildə həll olunmasına dair irəli sürülən mühüm fikirlər Azərbacana tərəf uzanan dost və qardaş əli kimi dəyərləndirilə bilər. Əbəs deyil ki, dövlətimizin başçısı Cənab İlham Əliyev Emoməli Rəhmona bu mövqeyinə görə həm özü, həm də Azərbaycan xalqı adından minnətdarlığını çatdırdı”.

“Digər əhəmiyyətli məqamlardan biri də Prezident İlham Əliyevin ölkələrimiz arasında ticarət, iqtisadiyyat, nəqliyyat sahələrində qarşılıqlı fəaliyyət məsələlərinə toxunması idi ki, bu amil də bir sıra faktorları ehtiva etməkdədir”-deyə vurğulayan Bəhruz Quliyevə görə, Azərbaycan və Tacikistan arasındakı ikitərəfli əməkdaşlıq növbəti və daha geniş iqtisadi imkanlara yol açacaq: “Mərkəzi Asiyanın digər ölkələrindən Azərbaycan ərazisindən keçməklə ixrac üçün tamamilə yeni imkanlar açılacaq ki, burada əsas vəzifəni öz üzərinə artıq istifadəyə verilmiş BTQ layihəsi götürür. O cümlədən, Ələt Ticarət Limanının tikintisi də növbəti geniş iqtisadi imkanlara, yükdaşımalara və logistik xidmətlərə yol açacaq”.

Ekspert əlavə edib ki, nəzərdə tutulan razılaşmalar həyata keçirildikdən sonra digər sahələrdə də ikitərəfli münasibətlərin möhkəmləndirilməsi istiqamətində mühüm işlər həyata keçiriləcək: “Kənd təsərrüfatı, humanitar sahə, təhsil və mədəniyyət və s. sahələr üzrə Azərbaycan və Tacikistan arasında reallaşdırılacaq müştərək işlər hər iki ölkənin davamlı inkişafına, sabitliyinə və uğurlu perspektivinə öz böyük töhfələrini verəcək”.

*Rövşən NURƏDDİNOĞLİ*

# “Con Batçelor Şou”: Müalicəvi əhəmiyyətə malik möcüzəli Naftalan nefti

## *ABŞ-ın məşhur radioverilişinin növbəti reportajı Naftalan neftinə həsr olunub*



Amerika Birləşmiş Ştatlarının geniş auditoriyaya malik olan “Con Batçelor Şou” radioverilişinin aparıcısı Con Batçelor Azərbaycana səfəri zamanı ölkəmizlə bağlı silsilə reportajlar hazırlayıb. AZƏRTAC xəbər verir ki, radioverilişin reportajlarından biri də möcüzəli və şəfaverici Naftalan neftinə həsr edilib. Radioverilişdə Naftalan şəhərinin müalicə turizmi sahəsində geniş təcrübəsi, o cümlədən dünyada bənzərsiz xüsusi növ neftlə müalicə üsulları barədə məlumat verilib.

Məşhur aparıcı qeyd edir ki, Naftalan müalicəvi əhəmiyyətə malik neftinə görə tanınır. Lakin bu neft avtomobillərdə və təyyarələrdə istifadə olunan neftdən deyil. Müalicəvi xassələrə malik bu neft Naftalan nefti kimi məşhurdur. Naftalan neftində gözəllik və müalicə üçün sanki bir möcüzə var.

Con Batçelor Naftalan şəhərindəki “Qarabağ SPA and Resort” otel kompleksində hazırladığı reportajda Naftalan nefti ilə müalicə aparan doktor Dilbər Kazımova və spa meneceri Rövlanə Heydərovanın fikirlərinə də yer verir. Məşhur aparıcı deyir: “Mən Floridanın Orlando şəhərindəki Disney dünyasının bir hissəsini xatırladan beşulduzlu müalicə kompleksindəyəm. Burada müalicə prosesi gedir. Kompleks müalicəyə gələn insanlarla doludur. Müalicə bir, iki gün yox, həftələrlə davam edir”.

Naftalan neftinin müalicəvi təsirlərindən, insanların bu neftə üstünlük vermələrinin səbəblərindən danışan Dilbər Kazımova və Rövlanə Heydərova onun dəri, sinir sistemi, qan dövranı və s. üçün faydalı olduğunu söyləyirlər. Onlar müalicə prosesi barədə məlumat verir, qonaqların 99 faizinin buradan razı getdiyini bildirirlər.

Con Batçelor Naftalan neftinin şöhrətindən bəhs edir. O deyir ki, əgər bir vaxtlar Naftalana yalnız keçmiş Sovet İttifaqı ölkələrindən çoxlu sayda insan gəlirdisə, indi 60-dan artıq ölkədən, hətta Amerikadan da buraya gəlirlər. O, Naftalan neftinin müxtəlif xəstəliklərin müalicəsində faydalı xüsusiyyətlərini dinləyicilərin diqqətinə çatdırır. “Mən görürəm ki, buraya gələn insanlar çox məmnundurlar. Onlar “Qarabağ SPA and Resort” kompleksinin ərazisində gəzirlər. Ümumiyyətlə, bu, çox gözəl kompleksdir. Mən indiyə qədər gördüyüm ən qeyri-adi bir kurort mərkəzində oldum. Mənim sol əlimdə bir az problem var idi və Naftalan neftindən istifadədən sonra hiss edirəm ki, onun yaxşı təsiri olub”, - deyə məşhur aparıcı bildirir.

Qeyd edək ki, məşhur “Con Batçelor Şou” radioverilişinin aparıcısı Con Batçelor 30 iyul-3 avqust tarixlərində Azərbaycanda səfərdə olub. Səfər çərçivəsində o, ilk dəfə olaraq ardıcıl surətdə Azərbaycan haqqında yeddi müxtəlif veriliş hazırlayıb.

“Con Batçelor Şou” gündəlik həyatda aktual olan beynəlxalq hərbi, siyasi və iqtisadi mövzulara həsr edilir, ABŞ-da federal ABC Radio Şəbəkəsinə daxil olan müxtəlif ştat və şəhərlərdə geniş çeşidli radiokanallar tərəfindən həm canlı, həm də audio yazısı yayımlanır. Həftənin hər günü yayımlanan bu şou ABŞ-da milyonlarla dinləyici auditoriyasına malikdir.

# Təbii qazın Azərbaycanın ümumi ixracındakı payı azalıb

Cari ilin yanvar-iyul aylarında xam neft və bitumlu minerallardan alınan xam neft məhsullarının ixracı Azərbaycanın ümumi ixracının 80,72 faizini, təbii qaz 6,98 faizini, neft məhsulları isə (2710 mal kodu üzrə) 3,11 faizini təşkil edib. AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Gömrük Komitəsi (DGK) məlumat yayıb. Qeyd edək ki, keçən ilin müvafiq dövründə neft ixracı ölkənin ümumi ixracının 72 faizini, təbii qaz 10,88 faizini, neft məhsulları 2,90 faizini təşkil etmişdi.





# Dövlət Sərhəd Xidmətinin silahlı birləşmələri tərəfindən taktiki döyüş təliminə start verilib





Avqustun 10-da Dövlət Sərhəd Xidmətinin (DSX) silahlı birləşmələri tərəfindən “Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində təhlükəsizliyin təmin edilməsi” mövzusunda taktiki döyüş təliminə start verilib.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası”na əsasən dəniz sərhədlərinin etibarlı mühafizəsi, Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində təhdidlərə qarşı səmərəli mübarizənin təmin olunması, döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması istiqamətində tədbirlər davam etdirilir.

Bu tədbirlər arasında Xidmətin Sahil Mühafizəsi və Çevik Hərəkət Qüvvələri tərəfindən birgə keçirilən taktiki döyüş təlimləri xüsusi yer tutur.

Xəzər dənizində Azərbaycan Respublikasının dövləti maraqlarının qorunması imkanlarının təkmilləşdirilməsi məqsədilə keçirilən təlimin əsas hədəfləri Xəzərdə neft-qaz ehtiyatlarının hasilatı və daşınması infrasmtrukturunun, sualtı boru kəmərlərinin mühafizəsinin təşkili, dənizdə və sahildə təxribat qruplarının axtarışı və zərərsizləşdirilməsi, sualtı müşahidə sistemləri vasitəsilə hədəflərin aşkarlanması, sualtı təxribat qruplarının axtarışı və zərərsizləşdirilməsi, gəmi və helikopterlərlə sərhəd axtarışının aparılması, raket-artilleriya qurğularından atışların keçirilməsi, Xəzər hövzəsindən qanunsuz məqsədlərlə istifadə hallarının, o cümlədən narkotik vasitələrin və digər qaçaqmalın, qeyri-leqal miqrasiya cəhdlərinin qarşısının alınmasıdır.

Təlimdən əvvəl DSX Çevik Hərəkət Qüvvələrinin bazasında təlimə cəlb olunan helikopterlərə, pilotsuz uçan aparatlara, komanda-qərargah maşınlarına və xüsusi nəqliyyat vasitələrinə, çevik bölmələrin şəxsi heyətinə, Sahil Mühafizəsinin sahil bazasında sərhəd gözətçi gəmilərinə, dənizçi şəxsi heyətə, döyüş texnikasına, xüsusi dalğıc avadanlıqlarına, rabitə ləvazimatlarına, kinoloji bölmələrə sıra baxışları keçirilib, onların təlimə hazırlıq səviyyəsi yoxlanılıb.

Sıra baxışları yekunlaşdırıldıqdan sonra təlimə cəlb olunan sərhəd gözətçi gəmiləri, uçuş vasitələri, digər xüsusi texnika və şəxsi heyət tərəfindən təlim üzrə tapşırıqların icrasına başlanılıb.

# Dünyanın nəqliyyat sisteminin lider ölkəsi

## *Bu istiqamətdə reallaşdırılan hər bir layihə Azərbaycanın dünyada nüfuzlu yer tutmasından xəbər verir*



***Azərbaycanın regionun, eləcə də, Avropa və dünya miqyasında başlıca nəqliyyat mərkəzlərindən birinə çevrilməsi ölkəmizə həm siyasi, həm də iqtisadi baxımdan mühüm üstünlüklər qazandırır. Bu mənada, atılan addım Azərbaycanın dünyada nüfuzlu yer tutmasından xəbər verir. Söz yox ki, əldə edilən bütün siyasi-iqtisadi uğurların başlıca təməlində Prezident İlham Əliyev faktoru və Onun məqsədyönlü və qətiyyətli siyasəti dayanmaqdadır. Belə ki, Azərbaycanın düzgün xarici və daxili siyasət aparması beynəlxalq siyasəti tamamlayır və bir çox amillər üst-üstə düşür, həyata keçirilən iqtisadi layihələr dünyada təqdir edilir və qəbul olunur. Bu mənada, neft-qaz, infrastruktur, nəqliyyat, logistika və s. sektorlardakı layihələrimiz çoxsaylı tərəfdaş toplayıb. Əbəs deyil ki, bir çox beynəlxalq təmsilçilər, məhz bu kimi faktorları yüksək qiymətləndirir və Azərbaycanın nəqliyyat sistemində lider ölkə olduğunu vurğulayırlar.***

### Rumıniyanın Azərbaycandakı səfiri Dan Yanku: "Mərkəzi Asiya, Xəzər və Qara dəniz regionları arasında yeni nəqliyyat marşrutları yaradıla bilər"

Rumıniyanın Azərbaycandakı səfiri Dan Yanku ölkə mətbuatına açıqlamasında bildirib ki, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu Mərkəzi Asiya, Xəzər və Qara dəniz regionları arasında yeni nəqliyyat marşrutlarının yaradılmasına müsbət təsir göstərəcək. Onun sözlərinə görə, söhbət "Şərq-Qərb" Nəqliyyat Dəhlizi kimi strateji əhəmiyyət daşıyan layihələrdən gedərkən, Rumıniya və Azərbaycan ümumi maraqları bölüşür. D.Yanku, eyni zamanda, qeyd edib ki, BTQ dəmir yolu təkcə Azərbaycan üçün yox, həm də region üçün birinci dərəcəli əhəmiyyət kəsb edir. Səfirin sözlərinə görə, bu, "Şərq-Qərb" Dəhlizinin vacib hissəsidir və regional əlaqələrin möhkəmlənməsinə vacib töhfə verəcək: "BTQ Mərkəzi Asiya, Xəzər və Qara dəniz regionları arasında yeni nəqliyyat marşrutlarının yaradılmasına müsbət təsir göstərəcək ki, bu, həm də Rumıniya üçün aktualdır. Bu regionlar arasında nəqliyyat əlaqələrinin yaxşılaşdırılması məqsədilə Rumıniya Xəzər-Qara dəniz Nəqliyyat Dəhlizinin hazırlanmasını təklif edib. Bu layihə "Şərq-Qərb" Dəhlizinin Qara dənizdən keçməklə genişləndirilməsini nəzərdə tutur".

### Rusiyanın Siyasi İnformasiya Mərkəzinin analitiki İvan Pyatibratov: "Cənubi Qafqazın əsas qüvvəsi olan Azərbaycan üçün bu, həm maliyyə, həm də siyasi bonuslar vəd edir"

Rusiyanın Siyasi İnformasiya Mərkəzinin analitiki İvan Pyatibratov isə mediaya açıqlamasında qeyd edib ki, BTQ irimiqyaslı dəmiryol layihəsinin reallaşdırılması Avropa ölkələrində Azərbaycana maraq oyadır, bu isə Bakıya yeni nəqliyyat marşrutlarının açılması perspektivlərini vəd edir. Ekspertin fikrincə, Bakı-Tbilisi-Qars Dəmir Yolu təkcə Bakı yox, həm də bütün region qarşısında ciddi iqtisadi perspektivlər açır: "Rumıniya tərəfinin təklif etdiyi Xəzər-Qara Dəniz Nəqliyyat dəhlizi təşəbbüsü düşünülmüş addımdır. Bu fikrin reallaşdırılması layihənin bütün iştirakçılarının maraqlarına uyğun olacaq. Əlbəttə, Cənubi Qafqazın əsas qüvvəsi olan Azərbaycan üçün bu, həm maliyyə, həm də siyasi bonuslar vəd edir".

Rusiyalı ekspert əlavə edib ki, perspektivdə Azərbaycan Mərkəzi Asiya, Xəzər və Qara dəniz regionları arasında nəqliyyat qovşağına çevrilə bilər. Onun fikrincə, Bakı-Tbilisi-Qars layihəsi yüklərin tranziti üçün yeni istiqamət qismində Rusiya tərəfi üçün də maraqlıdır.

### Azərbaycan və Rusiyanın nəqliyyat sahəsində əməkdaşlığı münbit əsaslara söykənir

Bu arada, onu da qeyd edək ki, Azərbaycanla Rusiya arasında digər sahələrlə yanaşı, nəqliyyat sahəsində də münbit amillər dayanmaqdadır. Belə ki, avqust ayında iqtisadiyyat naziri, Azərbaycanla Rusiya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev Rusiyanın nəqliyyat nazirinin müavini Alan Luşnikov ilə görüşüb.

Nazirlikdən mətbuata verilən məlumata görə, görüşdə nazir Ş.Mustafayev Azərbaycan-Rusiya əlaqələrinin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayaraq, əməkdaşlığın genişlənməsində iki ölkə arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinin əhəmiyyətini qeyd edib. Diqqətə çatdırılıb ki, ölkələrimiz arasında əməkdaşlığın mühüm istiqamətlərindən biri də nəqliyyat sahəsidir. Azərbaycan bir sıra beynəlxalq əhəmiyyətli nəqliyyat layihələrinin, o cümlədən, Bakı-Tbilisi-Qars Dəmir Yolu, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin təşəbbüskarı və fəal iştirakçısıdır. Şimal-Cənub Nəqliyyat Dəhlizinin hər iki ölkə üçün əhəmiyyətini qeyd edən iqtisadiyyat naziri bu dəhlizin nəqliyyat sahəsində əlaqələrin genişləndirilməsi və tranzit daşımalarının artırılması sahəsində önəmini vurğulayıb. Rusiya ilə birgə həyata keçirilən Samur çayı üzərində körpünün tikintisinin davam etdiyini bildirən Ş.Mustafayev bu layihənin də nəqliyyat və ticarət əlaqələrinin inkişafında və daşımaların artmasında əhəmiyyətli olacağını qeyd edib.

Rusiya nəqliyyat nazirinin müavini A.Luşnikov Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin uğurlu layihələrdən olduğunu vurğulayıb, hazırda Azərbaycan və Rusiya arasında icrası davam edən nəqliyyat layihələrinə, daşımaların artırılması imkanlarına və nəqliyyat sahəsində əməkdaşlıq perspektivlərinə dair fikirlərini bölüşüb.

Məhz bu kimi mühüm faktordan da, belə qənaətə gəlmək olar ki, Azərbaycanla Rusiya arasında nəqliyyat layihələri inkişaf edir və tez bir zamanda öz bəhrələrini verəcək.

### Bakı-Tbilisi-Qars marşrutu ilə yeni növ yüklərin nəql edilməsinə başlanılıb

Yeri gəlmişkən, onu da qeyd edək ki, artıq BTQ marşrutu üzrə yükdaşımalara başlanılıb və Rusiyanın "Maqnitiqorsk Metallurgiya Kombinatı" ("MMK") PSC Türkiyəyə metal məhsullarının çatdırılması üçün yeni marşrut təşkil edib. Belə ki, "MMK" Maqnitiqorsk-Bakı-Tbilisi-Qars Dəmir Yolu marşrutu ilə Türkiyəyə metal məhsullarının nümunə partiyasını çatdırıb. Rusiya şirkətinin məlumatında bildirilir ki, hazırda Azərbaycan operatoru "ADY Express" ilə birlikdə, bu marşrut ilə ildə 250 min ton metal məhsullarının və ya "MMK Metalurji"nin isti yayma rulonunda tələbinin üçdə bir hissəsinin çatdırılması imkanı hazırlanır. Həmçinin, qeyd olunur ki, ümumi çəkisi 120 ton olan 4

# Dünyanın nəqliyyat sisteminin lider ölkəsi

## *Bu istiqamətdə reallaşdırılan hər bir layihə Azərbaycanın dünyada nüfuzlu yer tutmasından xəbər verir*





ədəd konteyner, "Maqnitiqorsk Metallurgiya Kombinatı"nın Türkiyədəki törəmə müəssisəsinə çatdırılıb. Metal məmulatı olan vaqonlar 17 gün ərzində 5 min km məsafə qət edib.

Xatırladaq ki, "MMK Metalurji"nin isti yayma rulonunun tədarükü Novorossiysk limanı vasitəsi ilə yalnız dəniz yolu ilə həyata keçirilib: bu marşrutun uzunluğu 6 min km-dən çox, yolun müddəti isə 30 gündür.

Logistik marşrutlarının diversifikasiyası, şirkət üçün Novorosiysk limanını akvatoriyasında əlverişsiz hava şəraitindən və nəqliyyat növünün dəyişməsindən sığortalanmaq deməkdir. Əlavə yükaşırma əməliyyatlarının azalması (qatar-gəmi-qatar) kombinatın istehsal etdiyi məhsulun zədələnməsini də azaldır. Eyni zamanda, yeni marşrut yüklərin nəqliyyat müddətini azaltmaqla, şirkətə kapitalın dövriyyəsini də optimallaşdırmağa imkan yaradır. Nəhayət, Bakı-Tbilisi-Qars Dəmir Yolundan istifadə edilməsi, Maqnitoqorsk "Metallurgiya Kombinatı"na İskəndərunda yerləşən və özünəməxsus liman vasitəsi ilə Yaxın Şərq, Afrika və Avropaya məhsulunu nəql etməsinə əlverişli şərait yaradır.

### Cavid Qurbanov: "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə bağlı işlərin birinci mərhələsi başa çatıb

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə bağlı işlər də tam sürətlə davam etdirilir. Belə ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov bu barədə məlumat verib. O, qeyd edib ki, artıq layihənin birinci mərhələsi başa çatıb, dəhlizin Azərbaycan ərazisində olan hissəsi tam istismara hazırdır.

C.Qurbanov Azərbaycanın nəqliyyat-logistika imkanları, Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu, "Şimal-Cənub", Cənub-Qərb nəqliyyat dəhlizləri və Bakı -Tbilisi - Qars Dəmir Yolu bağlantısı barədə ətraflı məlumat verib. Onun sözlərinə görə, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi təkcə Azərbaycan, Rusiya Federasiyası və İran deyil, eləcə də, ixrac-idxal əməliyyatlarını həyata keçirərək, ticarət dövriyyəsini artırmaq istəyən digər region dövlətlərinin də inkişafında əhəmiyyətli rol oynayacaq.

### Prezident İlham Əliyevin Bakıda avtobus parkının yenilənməsi haqqında imzaladığı Sərəncam ölkədaxili nəqliyyat sisteminin perpektivli inkişafına töhfədir

Qeyd edək ki, ölkəmizin daxili nəqliyyat sistemində də bir çox uğurlu layihələr həyata keçirilir. Belə ki, Azərbaycanın dövlət başçısı, Prezident İlham Əliyev Bakıda avtobus parkının yenilənməsi haqqında Sərəncam imzalayıb. Bakı şəhərinin ictimai nəqliyyatında göstərilən xidmətlərin həm təhlükəsizlik, həm də keyfiyyət nöqteyi-nəzərindən qabaqcıl dünya standartlarına çatdırılması məqsədilə, sərnişinlərin avtobus nəqliyyatından təhlükəsiz və rahat istifadəsinin təşkili üçün avtobus parkının yenilənməsi daim diqqət mərkəzindədir. Son 3 ildə orta və iri tutumlu 300-dən artıq müasir sərnişindaşıyan avtobus alınaraq, Bakı şəhərinin marşrut şəbəkəsində istismara buraxılıb. Sərəncamda qeyd edilir ki, 300 ədəd sərnişin avtobusunun alınması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.84-cü bəndində göstərilmiş məbləğin 47 924000 manatı, ilkin olaraq, Bakı Nəqliyyat Agentliyinə ayrılsın.

Ardı Səh. 10

# Dünyanın nəqliyyat sisteminin lider ölkəsi

*Bu istiqamətdə reallaşdırılan hər bir layihə Azərbaycanın dünyada nüfuzlu yer tutmasından xəbər verir*

Əvvəli-Səh-9

Maliyyə Nazirliyinə Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb. Beləliklə, qeyd edə bilərik ki, Prezident İlham Əliyevin Bakıda avtobus parkının yenilənməsi haqqında imzaladığı Sərəncam ölkədaxili nəqliyyat sisteminin perspektivli inkişafına töhfədir.

### Azərbaycan vasitəsilə 6 ayda 25 milyon tondan artıq yük daşınıb

Digər əhəmiyyətli məqam Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərlə bağlıdır. Belə ki, təkcə 2018-ci ilin yanvar-iyun aylarında Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 25 milyon 675,5 min ton olub. Yük dövriyyəsi isə 5 milyard 525,7 milyon ton-km olub, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,1 faiz və 2,6 faiz artım müşahidə olunub. Yüklərin 15 milyon 932,1 min tonu və ya 62,1 faizi avtomobil nəqliyyatı, 6 milyon 084,9 min tonu və ya 23,7 faizi dəmir yolu nəqliyyatı, 3 milyon 658,5 min tonu və ya 14,2 faizi dəniz nəqliyyatı ilə daşınıb. Dəhliz vasitəsilə daşınmış yüklərin 19,3 faizini və ya 4 milyon 947,2 min tonunu tranzit yüklər təşkil edib.

### Hikmət Babaoğlu: "İrana qarşı sanksiyaların "Cənub Qaz Dəhlizi"nə şamil edilməməsi layihənin nə dərəcədə əhəmiyyətli olduğunu göstərir"

Söz yox ki, dünya iqtisadiyyatının təməlində həm də siyasi amillər dayanır və bu xüsusda iqtisadi maraqlarını qoruyan dövlətlər bu və ya digər şəkildə öz siyasətlərini yürüdürlər. Buna misal kimi, ABŞ-İran arasındakı bir sıra amilləri göstərmək olar. Daha dəqiq desək, ABŞ-ın İrana sanksiya tətbiq etməsi, beynəlxalq aləmdə birmənalı qarşılanmasa da, Azərbaycanın mövqeyi və balanslaşdırılmış siyasəti bu məsələdə öz rolunu oynayıb.

"İrana qarşı tətbiq olunan sanksiyaların "Cənub Qaz Dəhlizi" layihəsinə şamil edilməməsi mövcud geostrateji reallığın düzgün qiymətləndirilməsi və Avropanın enerji təhlükəsizliyi maraqlarının nəzərə alınması baxımından olduqca əhəmiyyətlidir". Bu fikirləri mətbuata Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib. Onun sözlərinə görə, bu layihənin müəllifi Azərbaycandır və onun reallaşdırılması zamanı bütün mümkün riskləri və perspektivləri dəqiqliklə hesablaya bilib. Deputat vurğulayıb ki, müasir beynəlxalq enerji münasibətlərinin vacib aktorlarından biri olan Azərbaycan özünün strateji tərəfdaşları ilə birlikdə hazırda elə bir geostrateji reallıq formalaşdırıb ki, onun ətrafında bütün iştirakçı ölkələrin maraqları uzlaşır: "Bu isə heç də sadə məsələ deyil. Ancaq Azərbaycan buna nail olmağı bacarıb. Ona görə də, iqtisadi sanksiyaların təzyiq rıçağı kimi istifadə edilməsi tarixində ən sərt hallardan biri kimi müşahidə etdiyimiz sanksiyalar zamanı belə Azərbaycanın maraqları xüsusi istisna kimi nəzərə alınır. Çünki ölkəmiz öz milli maraqlarını özünün strateji tərəfdaşlarının milli maraqları ilə məharətlə koordinasiya edib. Nəzərə almaq lazımdır ki, söhbət dünyanın ən böyük və ən bahalı layihələrinin birindən gedir. Bu layihə, sözün əsl mənasında, 21-ci əsrin layihəsi adını daşımağa



layiqdir. Son hadisələr də bir daha bunu sübut etmiş oldu".

H.Babaoğlu vurğulayıb ki, "Cənub Qaz Dəhlizi" layihəsi 7 ölkəni, eyni zamanda, kəmər boyunca 12 fərqli investor və 12 fərqli alıcı ilə birləşdirəcək: "Bu, həm də böyük enerji ehtiyatlarına malik olan Xəzər regionunu Avropa İttifaqı istehlakçıları ilə birləşdirən ilk boru kəməri olacaq. Yəni əslində, bu kəmər Avropanın enerji təhlükəsizliyinin yeni alternativi kimi çıxış edəcək. Belə bir alternativ mənbənin olması isə hazırkı gərgin beynəlxalq münasibətlər mərhələsində Avropa üçün hava-su kimi lazımdır. Ona görə də, hələ bir qədər əvvəl Vaşinqtonda İtaliya baş naziri Cüzeppe Konte ilə görüşdə ABŞ prezidenti Donald Trampın "Cənub Qaz Dəhlizi"nin bir hissəsi olan Transadriatik Boru Kəmərini (TAP) dəstəkləməsi çox böyük əhəmiyyətə malik idi və heç də təsadüfi deyildi. Ancaq belə mühüm layihələrin həmişə iqtisadi tərəflərilə bərabər mütləq siyasi tərəfləri də olur ki, bu da bizim üçün az əhəmiyyətli deyil".

Deputat bildirib ki, ölkəmizin həyata keçirdiyi bu tipli meqalayihələr beynəlxalq münasibətlər sistemində də Azərbaycanın yerini möhkəmləndirir və rolunu artırır: "Bu isə, nəticə etibarilə, milli maraqlarımızın və ərazi bütövlüyümüzün təmin olunmasına əsaslı zəmin yaradır".

### Amerikalı ekspert: "ABŞ üçün "Cənub Qaz Dəhlizi" İrana qarşı sanksiyalardan üstündür"

Bir sıra xarici ekspertlər də sözügedən məsələ ilə bağlı maraqlı mövqelərini açıqlayıblar. Misal üçün, amerikalı ekspert və "Bilig Brains" layihəsinin analitiki Rafael Səttarovun sözlərinə görə, ABŞ üçün "Cənub Qaz Dəhlizi" layihəsi İrana qarşı sanksiyalardan daha üstündür. O, qeyd edib ki, enerji sektoruna yönəlmiş yeni sanksiyalar İranla biznes sahəsində əməkdaşlıq edən iri şirkətlərin maraqlarına toxunacaq: "SOCAR və BP-nin qismində enerji nəhənglərinin lobbiçilik fəaliyyətləri nəticə verdi və onlar ABŞ prezidentinin yaxın ətrafına çatdıra bildilər ki, ABŞ-ın müttəfiqlərinin enerji təhlükəsizliyinə xidmət edəcək yeni layihənin mövqelərini zəiflətmək lazım deyil. Bundan başqa, Donald Trampın "Cənub Qaz Dəhlizi" ilə bağlı Sərəncamı göstərir ki, ABŞ bu layihənin Rusiyanın Avropadakı layihələri ilə rəqabət aparacağını başa düşür".

R.Səttarov, həmçinin, qeyd edib ki, Azərbaycan bu gün iri qaz tədarükçüsü qismində fəal şəkildə dünya bazarlarına daxil olub. Bu da Azərbaycana Qərbin marağını artırır: "Əlbəttə ki, Azərbaycan qazının həcmi Rusiya qazı ilə müqayisə oluna bilməz, amma yenə də Azərbaycan "Cənub Qaz Dəhlizi" ilə tədarükü 16 milyard kubmetrədək çatdıranda, bu dəhliz ölkəyə əlavə mənfəət gətirməklə yanaşı, onun Avropa bazarlarına təbii qaz tədarükçüsü kimi nüfuzunu artıracaq".

Azərbaycan qazı Bolqarıstana doğru və ikitərəfli əməkdaşlığın uğurlu nəticələri

Daha uğurlu layihələrdən biri də Azərbaycan qazının Bolqarıstana nəqlidir. Məlumata görə, bunu nəzərdə tutan Yunanıstan-Bolqarıstan interkonnektorunun (IGB) tikintisinə başlanması üçün hazırlıq işlərinin 80 faizdən çoxu başa çatıb.

Layihənin operatoru "ICGB AD" şirkətinin icraçı direktoru Teodora Georgiyevanın sözlərinə görə, layihə üzrə yekun investisiya qərarı 2015-ci ilin dekabrında qəbul edilmişdi: "Boru kəmərinin Bolqarıstan hissəsinin tikintisi üçün icazə alınıb. Yunanıstan hissəsinin tikintisinə icazə isə üçüncü tərəflərin boru kəmərinə çıxışı ilə bağlı müəyyən qaydaların qəbul olunmasından dərhal sonra alınacaq". Layihə rəhbəri qeyd edib ki, səhmdarlar və Avropa Komissiyası layihənin maliyyə modelini və biznes planını razılaşdırıblar: "Hazırda Bolqarıstanla Yunanıstan arasında 25 il müddətinə vergitutma məsələləri ilə əlaqədar hökumətlərarası sazişin hazırlanması üzrə danışıqlar aparılır".

Onun sözlərinə görə, Avropa Komissiyasının rəqabət məsələləri üzrə baş direktorluğu dövlət yardımı barədə ilkin bildiriş prosedurunu başa çatdırıb.

### Azərbaycan-Bolqarıstan əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub

Yeri gəlmişkən, onu da xatırladaq ki, cari il iyulun 11-də Milli Məclis sədrinin birinci müavini, Müdafiə, Təhlükəsizlik və Korrupsiya ilə Mübarizə Komitəsinin sədri Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikası xarici işlər nazirinin müavini Yuri Şterk ilə görüşüb.

Rəsmi mənbələr xəbər verir ki, Ziyafət Əsgərov bu cür görüşlərin ikitərəfli əlaqələrin möhkəmləndirilməsi baxımından əhəmiyyətli olduğunu söyləyib. İki ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu deyən Milli Məclis sədrinin birinci müavini qeyd edib ki, dövlət başçılarının qarşılıqlı səfərləri, aparılan danışıqlar münasibətlərin gücləndirilməsində önəmli rol oynayır. İqtisadi, ticarət, energetika, mədəni sahələrdə əməkdaşlığımız dinamik inkişaf edir. Ölkələrimiz arasında ticarət dövriyyəsini yüksəltmək üçün geniş imkanlar mövcuddur.

Ziyafət Əsgərov bildirib ki, dövlətlərarası əlaqələrin möhkəmləndirilməsində parlamentlərin rolu böyükdür. Hər iki ölkənin qanunverici orqanlarında fəaliyyət göstərən parlamentlərarası əlaqələr üzrə işçi qruplarının əməkdaşlığı təcrübə və informasiya mübadiləsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, deputatlardan ibarət nümayəndə heyətlərimizin nüfuzlu beynəlxalq qurumlarda birgə səmərəli fəaliyyəti təqdirəlayiqdir.

Diqqətə çatdırılıb ki, ölkəmizdə gedən quruculuq işləri, müşahidə olunan yüksək tərəqqi ilə yanaşı, yerləşdiyimiz bölgənin təhlükəsizliyini təhdid altında saxlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll olunmaması bizi çox narahat edir. Problemin həlli ilə bağlı BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi, digər beynəlxalq qurumların qəbul etdiyi qərarlar mövcuddur. Bu sənədlərdə Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz işğal olunmuş torpaqlardan çıxarılması qeyd olunur, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı dəstəklənir. Lakin təəssüflə qeyd etməliyik ki, Ermənistan tərəfi bütün bu sənədlərə məhəl qoymur, öz işğalçılıq siyasətini davam etdirir.

Bolqarıstan Respublikası xarici işlər nazirinin müavini Yuri Şterk Azərbaycanda keçirdiyi görüşlər və aparılan müzakirələr barədə danışıb. O, ölkələrimiz arasında nəqliyyat, energetika, turizm, kənd təsərrüfatı, mədəniyyət sahələrində əməkdaşlığın vacibliyini vurğulayıb.

Bildirilib ki, Bolqarıstan Azərbaycanla münasibətlərin inkişafına böyük maraq göstərir. Siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığımız yüksək səviyyədədir. Qarşılıqlı faydalı əlaqələrin inkişafında qanunverici orqanlar arasında əməkdaşlıq xüsusi önəm daşıyır. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, qanun yaradıcılığı sahəsində təcrübə mübadiləsi çox əhəmiyyətlidir.

Qonaq Dağlıq Qarabağ məsələsində Bolqarıstanın mövqeyinin dəyişməz olduğunu söyləyib. Ölkəsinin problemin beynəlxalq hüquq normaları çərçivəsində, sərhədlərin toxunulmazlığı prinsipi əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirib, bu istiqamətdə keçirilən yüksək səviyyəli görüşləri, aparılan danışıqları alqışladıqlarını deyib. Sonra iki ölkə arasında münasibətlərin genişləndirilməsi, əməkdaşlığın inkişaf perspektivləri və tərəfləri maraqlandıran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Ümumiyyətlə, ortada olan bütün bu faktlar, həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, reallaşdırılan və qarşıda reallaşdırılacaq hər bir layihə, hər bir atılan addım, bilavasitə Azərbaycanın həm siyasi, həm də iqtisadi qüdrətini daha da artırmaqda və nüfuzunu gücləndirməkdədir. Eyni zamanda, qarşılıqlı münasibətlərdən, etibarlı tərəfdaşlıqdan, eləcə də, strateji əməkdaşlıqdan doğan bu kimi faktorlar ölkəmizə həm iqtisadi dividendlər gətirəcək, həm də digər sahələrdə davamlı uğurlar əldə etməyimizə münbit şərait yaradacaq. Söz yox ki, bütün bunlar, bilavasitə Prezident İlham Əliyev strategiyasının ali və məntiqi nəticəsi olaraq qiymətləndirilməlidir.

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycanda yürüdülən uğurlu sosial siyasət davamlı xarakter alıb

## "DOST" mərkəzlərinin təşkili barədə verilən qərar Prezident İlham Əliyevin insan faktoruna verdiyi ən dəyərli qiymətlərdən biridir

***Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi, ilk növbədə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Söz yox ki, bu istiqamətdə də son illər mühüm və ardıcıl addımlar atılmaqdadır. Prezident İlham Əliyev hər zaman öz çıxışlarında sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirərək, vurğulayıb ki, layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq.***

DOST MƏRKƏZ
dayanıqlı və operativ sosial təminat

### Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2 milyon manat ayrılıb

Bəlli olduğu kimi, Prezident İlham Əliyev əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında Sərəncam imzalayıb və dövlət başçımız konstitusiyanın 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bir sıra mühüm qərarlar qəbul edib. Xüsusilə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin - "DOST" mərkəzlərinin təşkili və yaradılması üçün verilən qərar, belə bir qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, dövlət başçımız, ilk olaraq, əhalinin sosial-rifah halının daha da yaxşılaşdırılması, bu istiqamətdə aparılan işlərin təkmilləşdirilməsi istiqamətində diqqət və qayğısını əsirgəmir. Daha dəqiq desək, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi istiqamətində verilən Sərəncam da bu mühüm amili ehtiva edir.




Onu da qeyd edək ki, bu məqsədlə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2 (iki) milyon manat ayrılıb.

### İnkişaf edən ölkəmizdə sosial siyasət həyatımızın bütün sahələrinə böyük təsirini göstərməkdədir

Əhəmiyyətli məqam isə budur ki, məhz "DOST" mərkəzlərinin təşkili barədə verilən qərar Prezident İlham Əliyevin insan faktoruna verdiyi ən dəyərli qiymətlərdən biridir. Əbəs deyil ki, dövlətimizin başçısı daim öz çıxışlarında bu amilə toxunaraq, vurğulayıb ki, dövlətin inkişafı və tərəqqisi üçün əsas olaraq, insan kapitalı nəzərə alınmalıdır. Dövlət başçımızın rəhbərliyi altında güclənən iqtisadiyyatımız və bu istiqamətdə aparılan məqsədyönlü siyasətin nəticəsidir ki, bu kimi əhəmiyyətli sərəncamlar imzalanır və xalqımız bu qərarlardan bəhrələnir.

Ümumiyyətlə, inkişaf edən ölkəmizdə sosial siyasət həyatımızın bütün sahələrinə böyük təsirini göstərməkdədir. Həyata keçirilmiş və yaxın gələcəkdə yerinə yetiriləcək tədbirlər, nəhəng layihələri respublikada əhalinin sosial vəziyyətinin getdikcə daha da yaxşılaşması üçün əsaslı zəmin yaradır. Onu da qeyd etmək yerinə düşərdi ki, insana qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin apardığı siyasətin mühüm prinsiplərindəndir. Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meyilləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir. Eləcə də, iqtisadiyyatda həyata keçirilən köklü dəyişikliklər ölkədə iqtisadi sabitliyi təmin etməklə bərabər, əhalinin sosial müdafiəsini gücləndirmək üçün möhkəm zəmin yaradıb. Məsələn, son illər yüz minlərlə yeni iş yeri açılıb ki, bu da işsizliyin aradan qaldırılmasında müstəsna rol oynayır. Bu, bir daha təsdiq edir ki, Azərbaycanda sosial dövlət quruculuğu modeli uğurla həyata keçirilməklə yanaşı, həm də digər ölkələrə göstərilən örnəkdir. Dövlət başçımız xalqın güzəranının yaxşılaşdırılması üçün bütün imkanlardan yüksək səviyyədə istifadə edir və bütövlükdə, son illər ərzində çox ciddi sosial tədbirlərin reallaşdırılması da buna bariz sübutdur.

### Azərbaycan dövləti öz güclü iqtisadiyyatı ilə qarşıdakı illərdə daha böyük uğurlara imza atacaq

Eyni zamanda, cəmiyyətin sosiomədəni bazisinin postindustrial dəyərlər və demokratik ənənələr məcrasına uğurlu transformasiyası istiqamətində möhtəşəm nailiyyətlərə imza atan Cənab İlham Əliyevin iqtisadi sferada həyata keçirdiyi siyasətin daim özünü qabarıq verən ən önəmli cəhətlərindən biri, məhz onun sosialyönümlü xarakter daşımasıdır.

Azərbaycanın davamlı şəkildə artan iqtisadi imkanları fonunda Cənab İlham Əliyevin imzaladığı Sərəncam və fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında sosial xidmətlərin, xüsusilə, "DOST" mərkəzlərinin təşkili, həcminin, bu kimi qurumların keyfiyyətinin və ünvanlılığının mütəmadi artırılması, yoxsulluğun azaldılması kimi vəzifələr daim əsas planda yer alır.

Digər tərəfdən, dövlət başçısının rəhbərliyi altında həyata keçirilən məqsədyönlü siyasətin elmi-nəzəri, iqtisadi əsaslara söykənməsi, bu zaman sosial prioritetlərin düzgün müəyyənləşdirilməsi nəticə etibarilə xalqın maddi rifah halının daha da yaxşılaşdırılmasını, eyni zamanda, Azərbaycanın daha qüdrətli bir ölkəyə çevrilməsini təmin etməkdədir və bu, Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin prioritet məqsədidir. Belə ki, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ailə üzvlərinin və Qarabağ müharibəsi əlillərinin, Çernobıl qəzası əlillərinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına ölkə rəhbəri tərəfindən böyük diqqət və qayğı göstərilir. Ümumiyyətlə, bütün sahələri əhatə edən sosial qayğı və imzalanan sərəncamlar belə nəticəyə gəlməyə zəmin yaradır ki, Azərbaycan dövləti öz güclü iqtisadiyyatı ilə qarşıdakı illərdə daha böyük uğurlara imza ataraq, xalqının rifah halının yaxşılaşdırılması, sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində davamlı addımlarını atacaqdır.

***Rövşən NURƏDDİNOĞLU***

# Bu il əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 292,7 manat olub

Yanvar-iyul aylarında pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,6 faiz üstələyərək 20,1 milyard manata bərabər olub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, ticarət dövriyyəsinin 10 milyard manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 10,1 milyard manatını qeyri-ərzaq məhsulları təşkil edib. Satılmış məhsulların dəyəri 2017-ci ilin yanvar-iyul aylarının göstəricilərini real ifadədə müvafiq olaraq 1,9 faiz və 3,2 faiz üstələyib.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 45,6 faizi ərzaq məhsullarının, 4,3 faizi içkilər və tütün məmulatlarının, 18 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,1 faizi elektrik malları və mebellərin, 5,6 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,4 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunub.

Bu ilin yanvar-iyul aylarında istehlak məhsullarının 16,3 faizi ticarət müəssisələri, 50,6 faizi fərdi sahibkarlar tərəfindən, 33,1 faizi isə bazar və yarmarkalarda satılıb. Ötən ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 34,4 faiz artıb, fərdi sahibkarlar üzrə 1,5 faiz, bazar və yarmarkalar 2,6 faiz azalıb. Hesabat dövründə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 292,7 manat və ya 2017-ci ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 13,5 manat çox olub. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 146,1 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 146,6 manatlıq qeyri-ərzaq məhsulları alıb.

# "Söz və mətbuat azadlığı" oyunbazlığı

## Bu kimlərə sərf edir?

*Bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da söz və media azadlığı kifayət qədər münbit əsaslara söykənir, bu isə, belə deməyə zəmin yaradır ki, əgər bu faktor olmasa idi ölkə mətbuatımız inkişaf meyarlarından kənarda qalardı. Xüsusilə, söz və mətbuat azadlığı istər yazılı, istər elektron mediada öz inkişafını göstərir ki, minlərlə jurnalist cameəsi həmin istiqamətdəki fəaliyyətini şaxələndirir və tərəqqi etdirir. Söz yox ki, mövcud şərait təmin edilməsəydi, Azərbaycanda fəaliyyət göstərən və müxtəlif siyasi-ictimai baxışları əks etdirən saytlar, qəzetlər və portallar fəaliyyət göstərməzdi. Lakin bu mənada, fikir və mülahizələr apararkən, özlərini müxalifət "liderləri", ya da "qələm sahibləri" kimi zorla ictimai rəyə sırıyan adamların təəssüfdoğurucu "düşüncələrinin" şahidlərinə çevrilirik.*



### Həmdən-həmə, dəmdən-dəmə vurulan çənələr

Bu arada, kiçik bir xatırlatmanı edərək, elə də uzaq olmayan tariximizdə ekskurs etmək istərdim. Misal üçün, Beynəlxalq Söz və Mətbuat Azadlığı Günündə AXCP sədri Əli Kərimlidən geri qalmayaraq, Müsavat başqanı Arif Hacılının və onun nəzarətində olan saytın media təmsilçiləri arasında sərgilədiyi ayrı-seçkiliyi göstərə bilərik. Məsələ ondadır ki, Müsavat partiyası, daha doğrusu Arif Hacılı dövlətçilik maraqlarına xidmət edən real jurnalistləri bir kənara qoyub, nədənsə, dövlətin qanunlarını pozan, jurnalistlik fəaliyyəti adı altında tamamilə fərqli mövqe sərgiləyən, peşəsinin adına xələl gətirərək, cinayətlər törədən reket fərdləri "jurnalist" adlandıraraq, onları öz təbirincə, təbrik etmişdi. Bu da azmış kimi, Azərbaycanda mövcud olan müstəqil və azad mətbuatın guya basqılara məruz qaldığını əlində heç bir fakt və sübut olmadan iddia edən Hacılı, məhz özünü və ailə podratına çevirdiyi partiyasını cinayət törədərək həbs edilmiş "jurnalistlərin" azadlığa çıxacağı yönündə fəaliyyətini artıracağını demişdi. Bu xatırlatmanı isə, ona görə etdim ki, A.Hacılı indi də bağlanmış saytların "dərdinə" qalmağa başlayıb və üstəlik, özündən, nəinki Amerika, hətta Afrika kəşf edərək, həmdən-həmə, dəmdən-dəmə çənə də vurub.

### Reketçilik, şantajçılıq, böhtançılıq edənlər nə zamandan jurnalist cameəsinin "aparıcı fiqurları" oldular?

Təbii ki, A.Hacılı kimi bir fərdin mediadan danışmağa, ümumiyyətlə, haqqı yoxdur. Çünki hakimiyyətləri dövründə onların ölkə mətbuatına göstərdikləri "diqqət" və "qayğıdan" hər kəsin xəbəri var...

Başqa tərəfdən, o da maraqlıdır, bir sıra xarici dairələrin buyruq qullarına çevrilən, digər qaranlıq əməlləri nəticəsində qanunlarımıza hörmətsizlik edən, eləcə də, reketçilik, şantajçılıq və böhtançılıq edənlər nə zamandan jurnalist cameəsinin "aparıcı fiqurları" oldular ki, indi də A.Hacılı özünü reklam edərək, fəaliyyətini həmin istiqamətdə davam etdirəcəyini bəyan edib? Eyni zamanda, o da sirr deyil ki, bu gün Azərbaycanın bütün istiqamətlərdəki inkişafını, müstəqil siyasətini gözü götürməyən müəyyən xarici təşkilatlar, Qərb qurumları zaman-zaman həmin inkişafa qarşı yersiz, sübutsuz hesabatlar hazırlayır və bu vasitələrlə dövlətçilik maraqlarımıza xələl vurmağa cəhdlər göstərirlər.

### Partiyalara məxsus media saytları, necə işləyir? Sosial şəbəkələrdə qrup yaradıb ağızlarına gələnləri yazıb-pozanlar bunu necə edirlər?

Halbuki bu gün Qərb ölkələrində sosial media ilə yanaşı, mətbuatlara və jurnalistlərə basqılar kifayət qədərdir. ABŞ-da, Böyük Brtitaniyada, Fransada, Hollandiyada və s. Qərb dövlətlərində fəaliyyət göstərən bloggerlərin əksəriyyəti təqib və təzyiqlərə məruz qaldıqlarına görə ölkələrini tərk edib, bu və ya digər ölkələrdə siyasi sığınacaqlar alıblar. Nəyə görə "mətbuat müdafiəçiləri" bu faktları önə çıxarmır və əksinə, Azərbaycandakı inkişaf amillərinə qara yaxmağa cəhdlər göstərirlər? Əlbəttə, bu sualın cavabı məlumdur: belələri, sadəcə, dövlət maraqlarını sataraq, kimlərinsə qarşısında nə qədər sadiq nökər olduqlarını nümayiş etdirməyə çalışırlar.

Bu gün biz, elə A.Hacılı və onun timsalında olan "qayğıkeş mübarizəçilərə" bu sualı verə bilərik ki, əgər Azərbaycanda söz və media azadlığı onu və digərlərini "təmin" etmirsə, bu zaman partiyalara məxsus media saytları, necə işləyir? Sosial şəbəkələrdə qrup yaradıb, ağızlarına gələnləri yazıb-pozanlar bunu necə edirlər? Ümumiyyətlə, beziləri bu barədə düşünüblərim? Əlbəttə, düşünüblər! Sadəcə, onlara reallığı və həqiqəti deməyi bəlli ağaları qadağan edib. Deməк, Azərbaycanda bütün azadlıqlar, o cümlədən, söz və mətbuat azadlığı, internet azadlığı kifayət qədər təmin olunub. Müxalifət deyilən psevdoşivənçilər isə əllərinə düşən hər imkanda bu dövlətin əldə etdiyi uğurları qaralamağa çalışırlar. Ancaq göründüyü kimi, heç bir nəticə əldə edə bilmirlər. Çünki həqiqəti danırlar. Həqiqəti dananlar isə dövlətini, vətənini, hətta belə davam edərsə, öz yaxın ətraflarını da danarlar. Belələrindən isə bunu gözləməyə dəyər...

**Rövşən NURƏDDİNOĞLU**

# Naxçıvanda qanunvericiliyin tələblərini pozmuş 24 əcnəbi aşkarlanıb



***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən iyul ayında muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən yaşayan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 24 əcnəbi aşkarlanıb. Onlardan 16-sı barəsində cərimə inzibati tənbeh növü, biri barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etmə, yeddisi barəsində isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.***

Muxtar respublika Dövlət Miqrasiya Xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, ümumilikdə, ay ərzində xidmətə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 1633 müraciət daxil olub. Bu müraciətlərdən 108-i əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq məsələləri ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun araşdırılıb və müvafiq qərarlar qəbul olunub. Ötən ay olduğu yer üzrə qeydiyyatla bağlı 1525 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 517-si elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

# "ASAN xidmət"in "Çağrı" mərkəzi özəl sektorun xidmətləri ilə bağlı məlumatları da vətəndaşlara çatdıracaq



"Çağrı" mərkəzi "ASAN xidmət" yarandığı gündən fəaliyyət göstərir. Bu günə qədər 2 milyon 500 minə yaxın vətəndaşın zənginə cavab verilib. "Çağrı" mərkəzi "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti ilə bağlı informasiya xidmətinin göstərilməsini, xidmətlərlə bağlı şikayət və təkliflərin qəbul olunmasını həyata keçirir. Gündəlik 3 minə yaxın zəng qəbul olunur. İndiyə kimi 30 nəfərlik kollektivlə fəaliyyət göstərdiyi üçün mərkəz bütün müraciətlərə cavab verə bilmirdi. Yeni "Çağrı" mərkəzi müasir texnika və digər avadanlıqlarla təchiz olunub. Xidmətdə ən son yeniliklər tətbiq edilib. Bundan sonra heç bir vətəndaşın zəngi itirilməyəcək, heç bir vətəndaş cavab üçün çox gözləməli olmayacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev jurnalistlərə açıqlamasında deyib.

Dövlət Agentliyinin sədri mətbuat nümayəndələrini mərkəzin inzibati binası ilə tanış edib və ətraflı məlumat verərək bildirib ki, xidmət zallarında ümumi olaraq 100 əməkdaşın fəaliyyəti nəzərdə tutulub. Mərkəzdə işə dövlət qulluğuna imtahanla keçən şəxslər götürüləcək. Onlar xüsusi təlimlərə cəlb olunacaq. "Çağrı" mərkəzi özəl sektorun xidmətləri ilə bağlı məlumatları da vətəndaşlara çatdıracaq.

# Dövlət İmtahan Mərkəzi: 39 minədək abituriyent ixtisas seçimi ərizəsini təsdiqləyib



Ali məktəblərə ixtisas seçimi davam edir. Dövlət İmtahan Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, saat 10.00-a olan göstəricilərə əsasən, I ixtisas qrupu Azərbaycan bölməsi üzrə 11472, II ixtisas qrupu üzrə 8527, III ixtisas qrupu üzrə 9886, IV ixtisas qrupu üzrə 2888 nəfər ərizəsini təsdiq edib. I ixtisas qrupu rus bölməsi üzrə 1128, II ixtisas qrupu üzrə 920, III ixtisas qrupu üzrə 797, IV ixtisas qrupu üzrə isə 282 nəfər elektron ərizəsini təsdiq edib. V ixtisas qrupunda ərizəsini təsdiq edənlərin sayı ümumilikdə 3017 nəfərdir. Ümumilikdə 5 ixtisas qrupu üzrə 38677 nəfər ərizəsini təsdiq edib.

Xatırladaq ki, ixtisas seçimi avqustun 13-dək davam edəcək.

# Nikol keçirəcəyi mitinqə görə təlaş keçirir

## *Küçədən gəlmiş baş nazir komandasına adam yığmaq tapşırığı verib*



***"Məxməri inqilab" adı ilə küçədən gəlmiş baş nazir statusuna yiyələnmiş Ermənistanın yeni siyasi lideri Nikol Paşinyan paytaxt Yerevanda çoxsaylı mitinq keçirməyi planlaşdırıb. Hətta hökumətin keçirdiyi son iclasında, o, mitinqə daha çox insanın gəlməsi ilə bağlı tapşırıq da verib. Hələ "inqilab" etdiyi vaxtlar onun öz ətrafına kifayət qədər çox insanı cəlb etməsinə baxmayaraq, artıq iqtidarda olarkən, onun keçirəcəyi mitinqə daha çox insanın gəlməsi məsələsini qabartması özü-özlüyündə bir sıra suallar doğurur.***

### Nikol Paşinyanın "məxməri inqilabı"nın əsas "uğur tandemi", məhz Rusiyaya qarşı yönəlmiş şüarlar sayəsində əldə olundu

Məsələn, belə bir sual yaranır ki, Paşinyan xalq arasındakı populyarlığının itirilməsindən qorxduğuna görəmi keçirdiyi hökumət iclasında sözügedən məsələni qaldırıb? Yaxud Nikolun hakimiyyətə gələr-gəlməz köhnə sistemdən olan bir çox nüfuzlu şəxsləri, o cümlədən, Robert Koçaryanı həbsə atması onu bu qədərmi narahat etməyə başlayıb? Eləcə də, Ermənistanda anti-Rusiya ab-havasının yaranması həqiqətənmi onu təlaşlandırır? Axı Nikol Paşinyanın "məxməri inqilabı"nın əsas "uğur tandemi", məhz Rusiyaya qarşı yönəlmiş şüarlar sayəsində əldə olundu. Məhz Serj Sarkisyan və onun komandasının devrilməsinin əsasında da Nikol Paşinyanın "Ermənistanın suverenliyi təhlükə altındadır", "Dövlətçiliyimizi itiririk" şüarı dayanırdı. Bu baxımdan, sadə erməni xalqı ona inanaraq, küçələrə axışdı və onu hakimiyyətə gətirdi.

### Dünya Bankı Ermənistandan çıxarılan pulları geri qaytarmayacaq - bu, Paşinyana vurulan növbəti zərbədir

Lakin bütün bunlardan sonra baş nazirin "mitinqdə daha çox insan axını olsun" tapşırığı verməsi, artıq onun tükənməsindən xəbər verən reallıqdır. Bəli, Nikol artıq nəyi necə etməyi bilmir, hətta bu gün onun yanında olmuş və hakimiyyətdə yer almayaraq, komandasını tərk edənlər var. Bütün bunlar, əslində, küçədən gəlmiş erməni baş nazirin uğursuzluqlarının başlanğıcıdır. Əgər belə olmasa idi, o, bəlli tapşırığını da verməzdi, eyni zamanda, küçələrdə olduğu kimi, sadəcə, bir mitinq çağırışı edərək, gedib utopik fikirlərini erməni xalqının xam xəyallarına sırıyardı.

Bu gün Nikol Sarkisyan hakimiyyətinin və ondan əvvəlkilərinin ölkədən çıxardıqları pulların geri qaytarılması üçün var-gəl edir, hətta bunun üçün Dünya Bankına müraciət də ünvanlayıb. Lakin ona gələn rədd cavabı get-gedə itən nüfuzuna növbəti zərbəni vurub. Üstəlik, ölkədə köhnə sistem tərəfdarları da yavaş-yavaş üzə çıxmağa başlayıblar. Onların isə arxasında, məhz Kreml dayanıb. Əgər nəzərə alsaq ki, artıq separatçılar, yəni "DQR" rejimi də ona "əlcək atıb", deməli, vəziyyət heç də onun istədiyi kimi getmir. Əksinə, vəziyyət kritikləşir və Ermənistan siyasi böhranın içində çabalayır.

### Paşinyan unudub ki, artıq o, küçədə deyil, kabinetdə əyləşib və dediyi hər söz rəsmi hesab edilə bilər

Əslində, Nikol özü, ağzından bişirib çıxarmadığı sözlərinin və ifadələrinin qurbanına çevrilib. Məsələn, deyib ki, onun rəhbərlik etdiyi iqtidar nə qərbyönümlü, nə də rusiyayönümlüdür, onun rəhbərlik etdiyi hakimiyyət erməniyönümlüymüş və s. Əlbəttə, bir ifadəylə xalq arasında nüfuz qazanmağa çalışan Paşinyan unudub ki, artıq o, küçədə deyil, kabinetdə əyləşib və dediyi hər bir söz rəsmi hesab edilə bilər. Bu səbəbdən, sabah Qərb, ya da Rusiya onun bu ifadəsini üzünə vurarsa, o zaman anlasa da, artıq gec olacaq.

### Erməni politoloqundan "əks-məxməri inqilab" anonsu

Bu arada, erməni politoloqu Ayk Martirosyan ölkəsinin Birinci Kanal portalına maraq doğuracaq, ikibaşlı açıqlama verib. "Əgər harada "məxməri inqilab" varsa, orada "əks-məxməri inqilab" da baş verə bilər" - deyə Ermənistanda baş verən daxili siyasi proseslərə münasibətini bildirən Martirosyan deyib ki, məhz buna görə rəqibi heç vaxt ucuz tutmaq olmaz: "Söhbət yalnız Koçaryan və onun komandasında deyil, axı o, heç respublikaçı da deyil. Söhbət, bütövlükdə, destruktiv güclərdən gedir. Onlar ölkəni dağıdaraq, öz maddi mənfəətlərini güdüblər. Onlar öz aralarında müəyyən danışıqlara gedərək, yeni çevriliş edə bilərlər".

Beləliklə, erməni politoloqu bu sözləri ilə Paşinyana eyham vuraraq, özünü bu qədər sərbəst aparmamağı tövsiyəsi edib və vəziyyətin heç də normal olmadığını bildirib. Görünür, Paşinyan da öz vəziyyətinin ağırlığını dərk edərək, artıq mitinqlərinə çox insanın gəlməyəcəyinin fərqinə varıb. Ona görə də, keçirdiyi iclasda "mitinqə kifayət qədər çox adamın gəlməsi lazımdır" tapşırığını verib. Lakin hər şeyə rəğmən, onun mitinqinin necə başa çatacağını da gözləməyə dəyər. Çünki bu mitinqdən sonra Ermənistanda daha ağır proseslərin gedəcəyini də proqnozlaşdırmaq mümkündür.

***Rövşən RƏSULOV***

# Kazimirovun aktivləşməsinin səbəbi nədir?

***"ATƏT-in Minsk Qrupunun keçmiş həmsədri və uzun müddət təkbaşına Rusiyanın adından ATƏT-ə rəhbərlik etmiş V.Kazimirov son vaxtlarda xeyli aktivləşib". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.***



Mərkəz sədrinin sözlərinə görə, N.Paşinyan hakimiyyətə gələndən sonra Kazimirov Ter-Petrosyanın aktivliyini çox ustalıqla neytrallaşdırdı: "Hətta xüsusi olaraq Yerevana uçub gəldi və bununla da o, Dağlıq Qarabağ probleminin həllinin tormozlanmasına özünün "töhfəsini" verdi. "Nezavisimaya qazeta"ya ödənişli yazısında yeni yanaşma mövcuddur. Amma bu, onun Dağlıq Qarabağ məsələsində qərəzli ermənipərəst mövqeyində dəyişikliyin olduğu anlamında deyil. Kazimirov SSRİ-nin dağıdılmasında Qarabağ probleminin, ermənilərin rolunu təsdiq edir. Bu onun həm də aldadıcı manevrdir.

Kazimirov Ermənistan və Azərbaycandakı vəziyyəti təsvir edir. Ermənistandakı vəziyyətin danışıqlar prosesində onun mövqeyini gücləndirmədiyini bildirir. Azərbaycanla bağlı müəyyən qədər təfərrüatlı məlumat verir. Guya Azərbaycanda pul var, iqtisadiyyat var, amma Azərbaycanda maliyyənin qeyri-düzgün bölünməməsi problemlər yarada bilər. Amma bəllidir ki, pulun qeyri-düzgün bölgüsünü aradan qaldırmaq çox rahatdır. Ermənistanda pul da yoxdur, demək onun ədalətli və ya ədalətsiz bölgüsü də yoxdur.N.Paşinyan hakimiyyətə gələndən sonra Ermənistanda azadlıq, demokratiya və Rusiya ilə münasibətlərə ciddi zərbə deyib. 37-ci ilin abı-havası bərpa olunub. Kazimirov da hər halda başa düşür ki, parlament seçkilərinə qədər N.Paşinyan vəziyyəti çox çətinliklə idarə edəcək. Parlament seçkilərində Nikol Paşinyanın seçilməsi qeyri-mümkündür. Parlament seçkilərinədək erməni xalqının ayağa qalxması mümkündür.

Kazimirova görə Dağlıq Qarabağ üçüncü tərəfdir və danışıqlar prosesində iştirak etməlidir, Dağlıq Qarabağ müstəqil olmalıdır və bunun üçün Ermənistanın bütün rəhbərlərini birlikdə qərar qəbul etməyə çağırır. Dağlıq Qarabağ problemi Ermənistan dövlətini dağıtmaqla, erməni xalqını bu regiondan qovmaqla nəticələnir. Bu kontekstdən Dağlıq Qarabağ problemi Azərbaycanın müttəfiqinə çevrilib. Kazimirov doğrudan da əgər erməni xalqını sevirsə, o, əslində ermənilərə düzgün yol göstərməlidir. Bunu etmir. Ermənistanın Rusiyaya qarşı xəyanət kursunun müəlliflərindən biri də V.Kazimirovdur.

Kazimirov eyni zamanda Rusiya dövlətçiliyinə xəyanət edir. SSRİ rus xalqının ən qüdrətli imperiyası olub. Ermənilərin onun dağılmasında iştirakını Kazimirov özü şəxsən etiraf edir və SSRİ-ni dağıdan adamları mükafatlandırmağa təkid göstərir. Hər halda Kazimirov bilir ki, niyə görə son günlərdə Trampın Rusiyaya qarşı təzyiqləri artıb. Tramp Rusiyaya təzyiqlərdən geri çəkilmək istəmir. Əslində, Tramp və eləcə də Amerikanın analitikası çox gözəl bilir ki, Rusiyanın daxilində Kazimirov kimi Rusiyanın dövlət maraqlarını arxa plana çevirən siyasi istebleşment var.

Kazimirovlar Rusiyanın inkişafına əngəl törədən problemlərin aradan qalxmamasına çalışırlar. Çünki onların özlərinin fərdi, korporativ maraqları məhz belə vəziyyəti tələb edir. Azərbaycan güclənir, dünya miqyasında rolu, iştirakı artıb. Dağlıq Qarabağ probleminin mövcud olduğu halda Azərbaycanın uğurlu inkişaf formulunu tapması Kazimirov kimilərə çox gözəl sübutdur. Kazimirov özünə daimi normal, firavan həyat tərzi yarada bilib-bilməyib, bu artıq bizə aid olan məsələ deyil, Rusiya dövlətçiliyinə aid olan məsələdir. Bəlkə də ona görə SSRİ-ni dağıdanların RF-i də dağıdacağına stavka edir".

***Ceyhun Rasimoğlu***

# Yol Polisi: Odsöndürəni olmayan nəqliyyat vasitələrinin sürücüləri 50 manat məbləğində cərimə ediləcəklər




Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi sürücülərə və nəqliyyat vasitələrinin sahiblərinə müraciət edib. Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, yol-nəqliyyat hadisəsi nəticəsində və ya texniki nasazlıq səbəbindən mexaniki nəqliyyat vasitələrində baş verə biləcək yanğının qarşısının alınması üçün avtobuslarda, minik və yük daşıyan avtomobillərdə, eləcə də təkərli traktorlarda odsöndürənin olmamasına görə "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununa 1 saylı Əlavənin VII hissəsinin 7-ci bəndinin tələblərinə müvafiq olaraq, sürücülər inzibati məsuliyyət daşıyırlar.

Qeyd olunanları nəzərə alaraq, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi bir daha sürücülərin və avtomobil sahiblərinin diqqətinə çatdırır ki, müvafiq standartlara cavab verən ödsöndürəni olmadan idarə edilən nəqliyyat vasitələrinin sürücüləri Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 342.5-ci maddəsinə əsasən 50 manat məbləğində cərimə ediləcəklər.

# Payızda müxalifət düşərgəsində ölüm-qalım savaşı baş verəcək

## "Ağ Partiya"nın sədri: "Onlar siyasi taftalogiya ilə məşğul olurlar"

***Bütün seçkisonrası dövrlərdə olduğu kimi, bu dəfə də radikal təmayüllü müxalifət düşərgəsi siyasi uğursuzluğu ilə barışmalı olub. Ümumiyyətlə, düşərgənin süstlüyü artıq göz önündədir və oradakı partiyalar, necə deyərlər, öz qınlarına çəkilib növbəti siyasi-ictimai proseslərə qədər ayaqda qalmağa cəhd göstərirlər. Lakin hazırda yay mövsümü olduğuna görə, necə deyərlər, "kölgəliyə çəkiliblər". Bu, həm də onların mövsümi müxalifət olmalarından xəbər verir. Lakin onların bu kimi "yaşam" tərzində isə "liderlərin" dadlarına çatan sosial şəbəkələrdir ki, məhz feysbuk, "tvitter" kimi şəbəkələrdə "var" olduqlarını göstərməyə çalışırlar.***

Düzdür, ictimai rəy onsuz da bu cür zəif, lüzumsuz və qeyri-səmərəli müxalifəti qəbul etməyib, etmir də, ancaq "Milli Şura", AXCP, Müsavat və s. bəzi partiyaların rəhbərliyi hələ də xam xəyallarına dalaraq, guya ölkənin ictimai-siyasi həyatında "mühüm fərd" olduqlarını sanırlar. Halbuki təkcə "Milli Şura"nı götürsək, bu qurumun, hətta ona üzv olmayan digər siyasi qurumların iştirakı ilə birgə normal aksiya və mitinq keçirə bilməməsi qeyd olunan reallığı kifayət qədər isbatlamış olur. Biz, bunun dəfələrlə şahidlərinə çevrilmişdik...

### "Artıq əvvəlki formatlarına qayıdıblar"

Bu arada, "Ağ Partiya"nın sədri, Müsavat partiyası gənclər təşkilatının keçmiş sədri Tural Abbaslı müxalifətin acınacaqlı vəziyyətinə münasibətini açıqlayarkən deyib ki, adamlar, yəni



Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli və başqaları uzun illərdir siyasətlə məşğuldurlar, amma mübarizə aparmaq yerinə köhnəlmiş metodlar seçirlər: "Uzun illərdir hər biri siyasi partiyalara rəhbərlik edirlər, amma heç vaxt da bu təşkilatlar ictimai-siyasi hazır olmur. Bunu ört-basdır etmək üçün də siyasi taftalogiya ilə məşğul olurlar. Hətta aktiv siyasi mübarizə aparanları da ittiham etdilər. Özləri isə canderdi aksiyalar keçirməklə, gündəmdə qalmağa çalışırlar. İndi də növbəti dəfə əvvəlki formatlarına qayıdıblar".

### "50-60 yaşdan yuxarı insanlardır, yəni onlar həm fiziki, həm də psixoloji baxımdan mübarizə əzmində deyillər"

T.Abbaslı da hesab edir ki, lazımsız üsullarla müxalifətdə qalmaq, hətta düşərgədə monopoliya yaratmaq istəyənlər bu maraqlarının arxasında digər məqamları güdürlər - düşərgədə təmsil olunmaqla siyasi biznes qurmaq və müəyyən xarici təşkilatların verdikləri sifarişləri yerinə yetirib pul-para qazanmaq. Eləcə də, müxalifət düşərgəsinə qatılmaq istəyində olan yeni qüvvələrin qarşısını hansı vəchlə olsun almaq "liderlərin" başlıca məqsədlərindən biridir. Bununla bağlı "Ağ Partiya" sədri də deyir ki, belələrinin planları da müxalifət adına ortaya çıxmaq istəyən siyasi qüvvələrə və şəxslərə imkan verməməkdir: "Bu yolla da öz "bazarlarına" sahib olmaq istəyirlər. Bu insanların özləri öz potensiallarına, qələbə qazanacaqlarına inanmırlar və xalqın onlara etimad edəcəklərinə də inamları yoxdur. Həmin insanlar üçün "müxalifətçilik" biznesdir, yaşam mənbəyidir".

Beləliklə, T.Abbaslı hesab edir ki, radikal müxalifət daxilindəki süstlük təsadüfi deyil və bu, dağıdıcı müxalifət "liderlərinin" fəaliyyətsizliyi ilə əlaqələndirilə bilər: "Uzun illər bu adamların arasında olmuşam. Onların əksəriyyəti 50-60 yaşdan yuxarı insanlardır. Yəni onlar həm fiziki, həm də psixoloji baxımdan mübarizə əzmində deyillər. Onları mübarizə yox, yaxşı yaşamaq, komfortlu həyat maraqlandırır. Bilirlər ki, mübarizə zəhmət və əziyyət tələb edir. Bu yükün altına girmədikləri üçün də müxalifət daxilindəki prosesləri maksimum ölü nöqtədə saxlamaq istəyirlər. Buna görə də, boykot yolunu seçirlər. Özlərini əziyyətə salmaq istəmirlər, bugünkü vəziyyətlə barışıblar və öz məişət məsələlərini həll etməklə məşğuldurlar".

Reallıqda budur ki, əslində, düşərgədəki köhnə və nimdaş müxalifət partiyalarının "liderlərini" haqlı olaraq ittiham edən digər müxalifətçi T.Abbaslı belə siyasi qurumların tarixin arxivinə atılması vacibliyinə eyham vurur. Hətta belə qənaətə gəlmək olar ki, yaxın zamanlarda istər "Ağ Partiya" və istərsə də bu kimi digər yeni yaradılmış müxalifət partiyaları köhnələri siyasi arenadan çıxdaş edəcəklər. Daha dəqiqi, çox yaxın vaxtlarda, bütövlükdə, müxalifət düşərgəsində ölüm-qalım savaşına start veriləcək. Bu savaşdan hansılarının sağ-salamat çıxacaqlarını isə zaman göstərəcək...

**R.RƏSULOV**

# Niyaməddin Orduxanlı: "Bir ananın dəfnindən siyasi şou düzəltməklə daxillərində gizlənmiş şeytançılıqlarını üzə çıxardılar"

***Mehman Hüseynovun anasının vəfatı üzərindən AXCP sədri Əli Kərimlinin və eləcə də, onun kimi bəzi radikal müxalifət liderlərinin siyasi dividend qazanmaq cəhdləri son günlər ölkə ictimaiyyəti tərəfindən əxlaqsızlıq və qeyri-etik normaları aşmaq kimi qiymətləndirməkdədir. Söz yox ki, siyasi baxışından asılı olmayaraq, hər hansı bir insanın ailəsində olan itki üzərindən belə bir cəhdlərin edilməsi, eyni zamanda, anormallıq kimi qiymətləndirilir.***



BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı məsələ ilə bağlı "Səs" qəzetinə açıqlamasında bildirib ki, əslində, baş vermiş hadisə dəhşətli bir mənzərənin görüntüsü idi: "Bu dəhşətli mənzərənin digər tərəfi bəzi internet saytlarında, eləcə də, bəlli sosial şəbəkə qruplarında bir insanın öz valideyninin dəfn mərasimini mənəviyyata və insanlığa sığmayan bir formada təqdim etmək idi. Kimliyindən asılı olmayaraq, hər bir insan öz valideynini itirir. Yəni demək istədiyim də budur ki, Mehman Hüseynovun anasının vəfatı üzərindən Əli Kərimli və digərləri, sadəcə, çirkincəsinə istifadə etməyə cəhd etdilər, bir ananın dəfnindən siyasi şou düzəltməklə daxillərində gizlənmiş şeytançılıqlarını üzə çıxardılar. Mən bundan təəssüf hissi keçirirəm və hiddətlənirəm".

Partiya sədrinin müavininin sözlərinə görə, demək olar ki, onlar bu məsələdə konkret bir pozisiyanı tutmuşdular və belələrindən də bunu gözləmək olardı: "Çünki Əli Kərimli bu günə qədər istənilən bir vəziyyətdə, yəni bildiyiniz kimi, bir qadının metroda şortik geyinərək, əxlaqsız davranışına da münasibət bildirir və bununla siyasi dividend güdür".

Niyaməddin Orduxanlı digər bir maraqlı məqama da toxunaraq bildirib ki, hətta Mehman Hüseynovun qardaşı Emin Hüseynovun özü belə bu məsələdən başladı və siyasi çalarlardan çıxış edərək, insanlığa yaraşmayan bir formada bunun müzakirəsini həyata keçirdi: "Ümumiyyətlə, Mehman Hüseynovun anasının vəfatı üzərindən Əli Kərimlinin və eləcə də, onun kimi bəzi radikal müxalifət liderlərinin, sosial şəbəkə istifadəçilərinin siyasi dividend qazanmaq cəhdləri gözlənilən bir hal idi".

"Mehman Hüseynov öz anası dəfn olunan gün utanc gətirən bir halla, yəni bu insanın anasının cənazəsi dəfn olunmamış başladı deyib-gülməyə, bu da heç cür başa düşülən və qəbul edilən deyildi. Yəni mən ilk dəfə idi ki, belə bir halla rastlaşırdım ki, insan öz anasının yasında o cür davrana bilər. Düşünürəm ki, bu adam əqli cəhətdən çatışmazlığı olan anormal bir insandır. Yəni insan savadsız, cahil ola bilər. Amma öz anasının yasında o cür davranması ağlasığan deyil. Yəni bu insan həmin gün nəyin fərqində olduğunu bilmirdi, yoxsa özünü o vəziyyətə qoymuşdu..."

"Hətta bununla bağlı sosial şəbəkədə də öz etirazımı bildirdim ki, mən ilk dəfə idi ananın dəfnində hırıldayan bir oğul görürdüm"-deyə xatırladan Niyaməddin Orduxanlı əlavə edib ki, bu səhnəni hər kəs də gördü: "Ümumiyyətlə, o, jurnalistlərə verdiyi açıqlamalarda sanki bu siyasi prosesləri təhlil edir, müzakirə edir. Həyatımda ilk dəfə idi ki, belə bir vəziyyətlə rastlaşırdım və ilk dəfə idi ki, bir övladın anasının dəfn mərasimində çirkin məqsədləri üçün istifadə edildiyinin şahidi oldum. Bunu da heç nəyə sığmayan bir hal kimi qiymətləndirirəm. Yenə də, bu məsələnin başında Əli Kərimli dayanırdı. Demək olar ki, Əli Kərimli üçün kimin vəfat etməsi və nəyin baş verməsindən asılı olmayaraq, bütün hallarda ölkənin siyasi rəhbərliyinə, dövlətin imicinin korlanmasına bütün imkanlarını səfərbər etmişdi. Bu dəfə də Ə.Kərimli öz amplusında idi. Əli Kərimli və Emin Hüseynov öz çirkin məqsədlərini bir insanın, bir ananın dəfni üzərində də qurmağı görünür, yaxşı bacarırmışlar".

**GÜLYANƏ**

# Qadına qarşı quldurluq etməkdə şübhəli bilinən şəxs saxlanılıb




Avqustun 9-da Daxili İşlər Nazirliyinin (DİN) "102 - Zəng Mərkəzi" Xidmətinə Binəqədi rayonundakı evlərdən birinə quldurluq məqsədilə naməlum şəxsin daxil olması barədə məlumat verilib. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayon polis idarəsinin hadisə yerinə gələn 6-cı polis bölməsinin əməkdaşları apardıqları araşdırmalarla həmin gün L.Novruzovanın Biləcəri qəsəbəsindəki evinə girmiş naməlum şəxsin ev sahibəsinə yumruqla xəsarət yetirdiyini, evdən mobil telefon və təmir-tikinti alətləri oğurladığını müəyyənləşdiriblər.

Quldurluğu törətməkdə şübhəli bilinən şəxs həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyənləşdirilərək saxlanılıb. Araşdırmalarla onun Salyan rayon sakini, əvvəllər xuliqanlıq törətdiyinə görə məhkum edilən Həzi İsayev olması müəyyənləşdirilib. Faktla bağlı araşdırma aparılır.

# Dövlət Miqrasiya Xidməti iyulda 3406 əcnəbiyə müvəqqəti yaşama icazəsi verib

İyulda Dövlət Miqrasiya Xidmətinə (DMX) müraciət etmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslərdən 3406-na müvəqqəti yaşama, 358-nə daimi yaşama (müddətin uzadılması) ilə bağlı icazə vəsiqələri verilib, 47-nin ölkədə müvəqqəti olma müddəti uzadılıb. DMX-dən AZƏRTAC-a bildiriblər ki, bundan başqa, Xidmət tərəfindən ay ərzində 705 əcnəbiyə ölkədə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazələri verilib. Qeyd edək ki, iyulda DMX tərəfindən ümumilikdə müvəqqəti və daimi yaşama, həmçinin iş icazəsinin verilməsi, o cümlədən müvəqqəti olma müddətinin uzadılması ilə bağlı 4516 qərar qəbul olunub.



# Bərabərlik hüququ haqqında

*Cəmiyyətin iki, bioloji nöqteyi-nəzərdən bir-birindən fərqli cinsdən ibarət olması bütün dövrlərdə mübahisə doğurur. Cinslərin fərqi müxtəlif cəmiyyətlərdə özünü müxtəlif cür xarakterizə edir. Cəmiyyətdə bu, bir-birindən cinsi fərqlənmə insanlar üçün heç də həmişə problem olmamışdır. Cinsindən asılı olmayaraq, bir qism insanlar, ümumiyyətlə, bu haqda düşünməyib, bunu Allahın yaratdığı, Allahın istədiyi qüvvə kimi qavrayıb. Bir qism isə cinslər arasında heç bir ayrı-seçkiliyin olmadığını, bunun əsrlər, adət və ənənələrlə qərarlaşdığını, din və ulu köklərdən gələn tarix, əxlaqi dəyər və normalar kimi səciyyələndirir. Ümumiyyətlə, kişi və qadının, təbii olaraq, rolları ciddi bölünüb. Bu bölgüdə isə kişilərə istisna olaraq "xüsusi" bir səlahiyyət verilib. Məhz elə bu baxımdan, da feminizm - qadınların bərabərhüquqlu olması ideologiyası, ictimai-siyasi hərəkat kimi çox gec, təbii ki, feodalizmin buxovlarından azad olmaq yoluna qədəm qoymuş ölkələrdə yaranır. Bəzi tədqiqatçılar feminizmə marağı artıq qədim yunan fəlsəfəsində (məsələn, Platonu tez-tez ilk feminist adlandırırlar) görürlər.*

Feminizm (femin-qadın) qadınların bərabərhüquqlu ideologiyası olaraq, eyni zamanda, həm də sosial-siyasi hərəkatdır. Feminizm hərəkatı qadınların cəmiyyət tərəfindən alçaldılmasına qarşı etirazın təşkilatlanma ilə təsdiqi idi.

İnsan adlı canlı varlığın ən mühüm xarakterik xüsusiyyətlərindən vacibi onun öz haqları, hüquqları haqqında müəyyən informatik biliklərə, yaxud az miqdarda da olsa, təsəvvürlərə malik olmasıdır. 18 əsr, əsasən, inqilabi təlatümlərin yüksəlişi ilə ictimai şüurda da kəskin dəyişikliklər yaratmaqla, insanın cəmiyyətdə yeri və rolu baxımından da cığır açdı. Məhz bu əsrdən qadınların hüquqları uğrunda müdafiə qurumları təşəkkül etməyə başladı.

1789-cu ildə Fransa Akademiyasının maarifçi filosof katibi J.A.Kondorse "Vətəndaş hüquqlarına qadınların yaxın buraxılması" məqaləsində qadınların əsarətdən (mövhümat) xilas edilməsi məsələlərini işıqlandırdı. O, yazırdı: "Hansı qanuna əsasən, qadını ictimai həyatdan ayırırlar? Məgər onlar millətin bir hissəsi deyilmi? İnsanlığın xoşbəxt tərəqqisi - cinslər arasındakı bərabərsizliyə son qoyulmalıdır. J.Kondorse belə bir müddəanı, xüsusilə, qeyd edirdi ki, "Qadınlar edam kürsüsünə qalxdıqları kimi, tribunaya da qalxa bilərlər".

Bu kimi ideyalar qadınların bərabərhüquqluluq uğrunda mübarizəsinin artıq əsasını qoydu. İlk etiraz aktı kimi Amerika sufrajist qadınların Seneke-Follze şəhərində keçirdikləri çıxışları göstərmək olar. Onların hazırladıqları deklorasiya orta təbəqə qadınlarının siyasi və sosial cəhətdən, ailədə və din tərəfindən əzilməsinə qarşı çağırış idi. Sonrakı illərdə isə qadınların əsas tələbi - onlara seçmək hüququnun verilməsi tələbi işlənilib- hazırlandı. XX əsrin ilk mərhələsində həm də "qadınların azad olmalarının humanist yolları" ideyası da ortaya çıxdı. Bir çox ölkələrdə qadınlar arzu etdikləri hüquqları əldə etmək imkanı qazandılar. Lakin bu, yenə onların həyatında əsaslı dəyişiklik yaratmadı. II Dünya müharibəsindən sonra sufrajist qadın hərəkatının əsas aparıcıları olan, orta təbəqənin təmsilçisi amerikalı və ingilis qadınların mübarizəsi daha da fəallaşır.

Bu dövrdə Qadınların Milli Təşkilatları yaranır. Onlar əməyin ödənilməsində qadınların hüquq pozuntularının ləğv edilməsi və qadın imkanına laqeydlik göstərən qanunvericiliyə baxılmasını tələb edirlər.

Əsrimizin 60-cı illərində feminist qadınlar etiraz yürüşləri təşkil edir, qadınların mübarizəsinə ictimaiyyətin diqqətini cəlb etməyə cəhd göstərirdilər. Onlar müxtəlif vərəqələr yayır, hətta seksual film və pornoqrafik rəsmlərin də əleyhinə çıxırlar. Tədricən beynəlxalq aləm qadın azadlığı hərəkatının əsas devizi olan qadın hüquqları uğrunda mübarizəni silsilə konfrans, forumlar çərçivəsində müəyyən qanun və qərarlar qəbul edilməsinə nail olmaqla həyata keçirdilər.

Hazırda belə bir müddəa qəbul olunmuşdur ki, feminist fikirlərin yaranması, onun insan kultu ilə birlikdə İntibah dövrünə aiddir (düzdür, bəzi tədqiqatçıların fikrincə, ilk feminist qədim yunan filosofu Platondur). Məhz İntibah dövründə qadın şəxsiyyətinin alçaldılması və ona ictimaiyyət tərəfindən ədalətsiz münasibətdən bəhs edən Kristina de Lizan və Kornelius Aqrippin ilk traktatları peyda olmuşdur. Feminizmin inkişafının sonrakı mərhələsi Böyük Fransız inqilabı ilə bir dövrə aiddir. İnqilabın elan etdiyi şüarlar - azadlıq, bərabərlik və qardaşlıq - qadınların bərabərhüquqluluğa cəhdlərini bir qədər də fəallaşdırdı. Bununla yanaşı, bütün insanların təbii və bölünməz hüquqa malik olmalarını elan etmiş "İnsanların və Vətəndaşların Hüquq Bəyannaməsi", faktiki olaraq, kişilərin hüquqları haqda bəyannamə idi.

Təsadüfi deyildir ki, Olimpiya de Quj 1792-ci ildə, qadınlara vətəndaşlıq və seçki hüququ və dövlət postlarına təyin olunmaq imkanları verilməsi haqda tələblər göstərilmiş "Qadın və vətəndaşların hüquq Bəyannaməsi"ni yazdı və bunun əks-sədası kimi qadın təşkilatları və klublar yarandı. Lakin bunlar tezliklə Konvet tərəfindən qadağan olundu. Olimpiya de Quj isə edam edildi. Bununla belə, elə həmin 1792-ci ildə Meri Uolstounkraft İngiltərədə "Qadınların tabeçiliyi haqda", Teodor Fon Qippel isə Almaniyada "Qadınların vətəndaşlıq vəziyyətinin yaxşılaşdırılması barədə" kitablarını nəşr etdirdilər. Bu səpkidə əsərlərin yaranması həmin dövr üçün təsadüfi olmamışdır.

Alman sosial-demokratları Avqust Bebelin 1879-cu ildə yazdığı "Qadın və sosializm" əsərində qadının vəziyyətinin cəmiyyətdəki münasibətlərdən asılı olduğunu qeyd edərək, göstərirdi ki, onun köləlikdən, təhkimçilikdən azad olması yalnız sosializmdə mümkün olacaqdır. O, bu əsərində maltuziantçılığı çox kəskin tənqid etmişdir.

Maltuziantçılıq nəzəriyyəsinin banisi, ingilis iqtisadçı və ruhanisi T.Maltusdur. Maltus cəmiyyətin inkişafındakı əksiklikləri kapitalist quruluşunun sosial şərtləri ilə yox, təbiətin "əbədi" qanunları ilə izah etməyə çalışırdı. Əhalinin artımında bioloji amillərə yer verən Maltus özünəməxsus "təbiət qanunu" formalaşdırıb ki, bu qanuna əsasən, əhali həndəsi inkişaf artımı tendensiyasına malikdir, mövcud olmaq vasitələri isə yalnız riyazi silsilə ilə arta bilər.

Araşdırmalar tam aydın şəkildə onu göstərir ki, feminist nəzəriyyəsinin yaranması və formalaşması, əsas etibarilə müxtəlif sosial-fəlsəfi, siyasi konsepsiyaların və intellektual cərəyanların inkişafı ilə bağlıdır. Bu konsepsiya, birinci növbədə, insan hüquqları nəzəriyyəsi əsasları çərçivəsi daxilində inkişaf etdirilən C.Lokk, J.J.Russo və C.S.Millin liberal fəlsəfəsini qeyd etmək yerinə düşərdi. Digər tərəfdən Ş.Furye, A.Sen-Simon və R.Ouenin utopik sosializm nəzəriyyələrinin təsiri nəzərə alınmalıdır. Qeyd edək ki, Ş.Furye həm "feminizm" termininin, həm də səhv olaraq K.Markın adı ilə bağlanan "qadının sosial vəziyyəti ictimai tərəqqinin ölçüsüdür" aforizminin müəllifidir. Nəhayət, bir qədər irəli nəzər yetirərək, XX əsrin ortaları və axırlarına yaxın meydana çıxmış və öz məzmun və istiqamətləri etibarilə müxtəlif olan nəzəriyyələri yada salaq. Əvvəlcədən bildirmək yerinə düşərdi ki, bu nəzəriyyələri yalnız onlarda seksuallığa və insanın sosial və siyasi kontekstdə seksual davranışına baxışın əsasları yaxınlaşdırır (Z.Freyd, V.Rayx, M.Mid, Q.Markuze, Fuko, Derrida və s. əsərləri nəzərdə tutulur).

Feminizmin inkişafının yeni bir dövrü, sol radikal etiraz hərəkatının yaranması və əks-mədəniyyət nəzəriyyəsinin formalaşması ilə XX əsrin 60-cı illərində vüsət aldı.

SSRİ dağıldıqdan sonra Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 18 oktyabr 1991-ci il tarixində respublikanın müstəqilliyi elan edildi. Müstəqil Azərbaycan dövləti ötən müddət ərzində özünün ərazi bütövlüyünü qoruyub saxlamağa, sərhədlərinin toxunulmazlığını təmin etməyə çalışmışdır. Əlbəttə, bütün dünyada təcavüzkar kimi tanınan bədnam qonşumuz Ermənistanın hərbi təcavüzü nəticəsində 20% torpaqlarımızın işğalı, bundan doğan bir milyondan çox qaçqın və məcburi köçkünlərin olması, iqtisadi keçid problemləri hədsiz dərəcədə çətinləşdirmişdir. Müstəqilliyi 1991-ci ildən qazansa da, nə qədər çətin də olsa, demokratikləşmə, hüquqi dövlət quruculuğu prosesləri 1993-cü ildə xalqın tələbilə yenidən respublikaya hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində uğurla getməyə başladı.

1994-cü ildə ölkədə atəşkəs rejimi yarandıqdan sonra dayanıqlı inkişaf kursu götürülmüş, siyasi, iqtisadi, sosial vəziyyətin sabitləşməsi prosesləri başlamışdır.

Siyasi elmlər doktoru Rövşən Mustafayev yazır: "XX əsrin son onilliyində Azərbaycanda ağır problemlər olsa da, ölkədə gedən inkişaf proseslərinin bir sıra prioritet istiqamətləri seçilirdi. Bu istiqamətlərdən biri də demokratikləşdirmə fonunda qadın hərəkatı, qadın problemi, qadın məsələsi, insan hüquqlarının tərkibi olan qadın hüquqlarının müdafiəsi, qadınların bəşəriyyətin aparıcı qüvvəsinə çevrilməsi kimi çox əhəmiyyətli bir istiqamət idi. Respublikamızda məlum problemlərin olmasına baxmayaraq, bu məsələ çox aktual bir problem kimi dövlət rəhbərinin diqqətində idi.

Bu problemin respublika üçün belə prioritet olması ancaq dünyada gedən proseslərin nəticəsi deyil, eləcə də, ölkə rəhbərinin bu problemi çox önəmli bir problem kimi qiymətləndirməsinin nəticəsidir.

Məhz qadın problemi ilə bağlı görülən bütün işlər, demək olar ki, 1993-cü ildən sonra başlanmışdır.

Dövlət müstəqilliyi əldə edildikdən sonra respublikada quruculuq işləri, ilk növbədə, beynəlxalq tələblərə cavab verən qanunvericilik bazasının yaradılması ilə başlanmışdır.

Azərbaycan BMT-nin və bir sıra beynəlxalq təşkilatların qurumlarında təmsil olunmaq üçün mühüm addımlar atmağa başladı.

1992-ci ildən BMT-nin üzvü olan Azərbaycan daha böyük nüfuzlu təşkilatlara üzv olmağı öz qarşısına məqsəd qoyur. Respublikamızda dövlətçiliyin möhkəmləndirilməsi, onun əbədiliyini, dönməzliyini qorumaq üçün qanunvericiliyin zənginləşdirilməsi, qəbul edilən qanunların, imzalanmış fərman və sərəncamların beynəlxalq normalara uyğunlaşdırılması respublikada gedən dövlət siyasətinin ancaq düz və yüksələn istiqamətdə getməsinə sübutdur. Əlbəttə, hüquqi-demokratik dövlətin və vətəndaş cəmiyyətinin əsas atributları bunlardır".

İnsan hüquqlarının tərkibi olan qadın hüquqlarının müdafiəsi, qorunması, genişləndirilməsi, qadınların kişilərlə bərabər hüquqlarının bərabər imkanlara keçməsi üçün qanunlarda Ali Qanun olan konstitusiyada təsbit olunması kifayət deyil. Məhz bərabər hüquqların bərabər imkanlarda reallaşdırılması üçün respublikada hüquqi təminat yaradılmalıdır. Əlbəttə, insan hüquqları və azadlıqları konkret bir çərçivədə məhdudlaşmır. Cəmiyyət inkişaf etdikcə, bu tələbat artır və yeni-yeni öhdəliklərin və qanunların qəbul olunması zərurətə çevrilir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 11 avqust

## "iPhone" pasportu əvəz edəcək?

ABŞ-ın Patent və Əmtəə Nişanları Bürosu "Apple" şirkətinin "iPhone" smartfonu vasitəsilə şəxsiyyətin identifikasiyası texnologiyası üçün müraciətini qeydə alıb. "RİA" agentliyi xəbər verir ki, texnologiyanın smartfondan pasport əvəzinə istifadəyə imkan verəcəyi nəzərdə tutulur. İdeya mühafizəli saxlancdan şifrələnmiş istifadəçi məlumatlarının informasiyanı tələb edən orqana təqdim edilməsi üzərində qurulur.



Şirkət qurğudan informasiyanı radiotezlik identifikasiya texnologiyası - məsələn, əksər smartfonlarda istifadə edilən "NFC" vasitəsilə ötürməyi planlaşdırır. Mütəxəssislərin planına görə, məlumatların qanunsuz müdaxilələrdən mühafizəsini "Touch ID" və "Face ID" biometrik identifikasiya texnologiyaları təmin edəcək. Konsepsiya geniş sahələri əhatə edə bilər: onu həm özəl şirkətlər (məsələn, əməkdaşlar üçün buraxılış sistemində), həm də dövlətlər (pasport yoxlanışında) tətbiq edə bilər. "Apple" şirkətinin hər həftə büroya çoxlu müraciətlər göndərməsinə baxmayaraq hazırlanan texnologiyaların cüzi hissəsi son məhsullarda tətbiq olunur.

## Misirdə ən qədim pendir aşkarlanıb

Qahirə yaxınlığındakı Sakkara rayonunda yerləşən məzarlıqdakı əşyaları araşdıran italiyalı alimləri orada dünyada ən qədmi - 3,2 min yaşı olan pendir aşkar ediblər.



AZƏRTAC yerli KİV-ə istinadla xəbər verir ki, Qahirə universitetilə birlikdə aparılan araşdırmalara görə, alimlər mal, qoyun və keçi südündən hazırlanan ən qədmi pendirin eramızdan əvvəl 1290-1213-cü illərdə istehsal edildiyi qənaətinə gəliblər. Qeyd olunur ki, qədim misirlilər o dünyanın varlığına inandıqlarından, dəfn olunan adamların yanında məişət əşyaları, yemək, içki və s. basdırırdılar.

## Çində mağazada baxış vasitəsilə alış-veriş etmək mümkün olacaq

Çində "Taobao" internet mağazası "Microsoft HoloLens" ilə birgə "Taobao MT Buy" adlı əlavə reallıq eynəyinin köməyilə alış-veriş etməyə imkan verəcək.

AZƏRTAC "Sinxua" agentliyinə istinada xəbər verir ki, eynək cari ilin sentyabrında satışa çıxarılacaq. Alıcılar eynəyi əl və gözlərin hərəkəti ilə idarə edə biləcək. Bundan başqa, eynək məhsulun mövcudluğunu və qiymətini, həmçinin mümkün çatışmazlığı və rəyləri göstərəcək. "Taobao" öz alıcılarının həyatını asanlaşdırmaq istəyən yeganə internet mağazası deyil. Məsələn, "Amazon" şirkəti artıq satıcısız işləyən ticarət şəbəkəsini istifadəyə verib. Müşahidə kameraları alıcılar tərəfindən rəflərdən götürülmüş lazımi məhsulları kassada verilən məhsul qəbzinə avtomatik əlavə edir.



# Bədii gimnastika üzrə 25-ci Azərbaycan çempionatına start verilib




Avqustun 10-da Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 25-ci Azərbaycan çempionatına və Bakı birinciliyinə start verilib. SİA-nın məlumatına görə, yarışda həm fərdi gimnastlar, həm də qrup hərəkətləri komandaları arasında qaliblər çoxnövçülük xalına görə müəyyənləşəcək. Komanda hesabında mübarizədə isə 2008-2010-cu və 2006-2007-ci il təvəllüdlü gimnastlardan ibarət qrup hərəkətləri komandaları, o cümlədən 2008-2010-cu, 2006-2007-ci və 2003-2005-ci il təvəllüdlülər kateqoriyalarına aid fərdi gimnastların ən yaxşı nəticələri nəzərə alınacaq.

Yarışlarda Bakı Gimnastika Məktəbini, "Ocaq Sport", "AyUlduz", "Zirvə" İdman klublarını, "Sərhədçi" İdman Olimpiya Mərkəzini, Respublika Kompleks İdman Məktəbini, o cümlədən Qusar və Gəncə şəhərlərini təmsil edən 117 gimnast mübarizə aparır. Avqustun 12-dək davam edəcək turnirdə tamaşaçıların əyləncəli vaxt keçirmələri üçün maraqlı müsabiqələr və fleşmoblar da təşkil olunacaq. Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsindən sonra 2008-2010-cu il təvəllüdlü qızlar arasında alətlərsiz, həmçinin top və halqalarla çıxışlar üzrə fərdi yarışlara start verilib.

# Ramil Quliyev Avropa çempionu oldu!



Türkiyə millisində çıxış edən azərbaycanlı sprinter Ramil Quliyev Almaniyanın paytaxtı Berlində keçirilən atletika üzrə Avropa çempionatında qızıl medal qazanıb. 28 yaşlı idmançı 200 metr məsafəyə qaçışda bütün rəqiblərini qabaqlayıb. Finişə 19,76 saniyəyə çatan Quliyev karyerasında ilk dəfə böyüklər arasında Avropa çempionluğuna sahib çıxıb. Qeyd edək ki, Ramil Quliyev ötən il 200 metr məsafəyə qaçış üzrə dünya çempionu olub.

# "Bədii gimnastika üzrə Azərbaycan yığması dünya çempionatında iştirak edəcək"



Bakıda, Milli Gimnastika Arenasında növbəti yarışlara - bədii gimnastika üzrə 25-ci Azərbaycan çempionatına və Bakı birinciliyinə start verilib. Yarışlarda balacalar, yeniyetmələr, gənclər və böyüklər arasında keçirilir. Hər iki yarışda həm fərdi gimnastlar, həm də qrup hərəkətləri komandaları arasında qaliblər çoxnövçülük xalına görə müəyyənləşəcək.

Bunu bədii gimnastika üzrə Azərbaycan milli komandasının baş məşqçisi Mariana Vasileva avqustun 10-da AZƏRTAC-a məxsusi müsahibəsində deyib. Baş məşqçi bildirib: "Böyüklərin yarışında gimnastlarımız Zöhrə Ağamirova, Darya Sorokina, Veronika Qudis Bakı birinciliyində deyil, Azərbaycan çempionatında iştirak edirlər. Yarışlar çərçivəsində milli komandamız nümunəvi çıxışlar da təqdim edəcək. Millimizin gimnastları Siyana Vasilyeva, Diana Doman, Zeynəb Hümmətova, Ayşən Bayramova və Aliyə Paşayeva bir ay sonra dünya çempionatında iştirak edəcəklər. Ona görə də bu gün onlar tamaşaçıları və gimnastika həvəskarlarını sevindirmək istəyirlər". Mariana Vasileva yarışları izləmək üçün Milli Gimnastika Arenasına gələn valideynlərə və azarkeşlərə gimnastlarımıza dəstək olduqları üçün təşəkkürünü bildirib.

# Joze Mourinyo: "İndiki heyət məni qane edir"



"Mançester Yunayted"in baş məşqçisi Joze Mourinyo komandasının mövsümə hazır olduğunu deyib. SİA-nın məlumatına görə, o, portuqaliyalı futbolçularla arasında heç bir problem olmadığını bildirib. "Ötən il bizim üçün pis keçmədi. Yeni mövsümə hazırıq. İndidən çempionatın favoriti barədə danışmaq mənasızdır. Kimin daha güclü olduğunu noyabr-dekabr ayında görəcəyik. Futbolçularla münasibətimin pis olduğunu mən də eşitmişəm. Bunlar yalandır. Yalan, min dəfə təkrarlansa da, həqiqətə çevrilməz. İndiki heyət məni qane edir. Biz yüksək yerlər uğrunda birlikdə mübarizə aparırıq".

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**